Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 84 (7811) BAZAR, 15 aprel 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## Prezident seçkiləri Azərbaycanda demokratiyanın növbəti təntənəsi oldu

**Aprelin 11-də keçirilən prezident seçkiləri bir daha təsdiq etdi ki, respublikamız demokratiya yolu ilə inamla irəliləyir. Ona görə də bu mühüm siyasi hadisə bütün parametrləri ilə Azərbaycanın siyasi tarixinə demokratik və azad seçkilərdən biri kimi düşdü. Seçkinin nəticələri dünyanın nüfuzlu siyasi dairələri, o cümlədən populyar xarici KİV tərəfindən də yüksək qiymətləndirildi. Bütün rəylərdə, informasiyalarda seçkilərin ədalətli və şəffaf keçirildiyi, ölkəmizin demokratik dəyərlər yolu ilə inkişaf etdiyi birmənalı şəkildə öz əksini tapdı.**

### Nümunəvi hazırlıq prosesi

Prezident seçkilərinin hazırlanması və keçirilməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən bütün müvafiq tədbirlər vaxtında həyata keçirildi. MSK-nın gördüyü bütün işlər təqvim planında göstərilən müddətlərdə, vaxtında yerinə yetirildi. Komissiya tərəfindən seçki maarifçiliyinə dair bir sıra tədbirlər keçirildi, müxtəlif vəsaitlər, seçki plakatları çap olunaraq yayıldı. Prezidentliyə namizədlərin irəli sürülməsi və imzatoplama kampaniyası Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə həyata keçirildi və hansısa kənar müdaxilələr qeydə alınmadı. Seçkilər ərəfəsində və seçkilər elan olunduqdan sonra sərbəst toplaşmaq azadlığı, söz və mətbuat azadlığı sahəsində də problemlər müşahidə edilmədi, KİV-in və jurnalistlərin azad fəaliyyətinə hər hansı müdaxilə və təzyiq faktları qeydə alınmadı. O cümlədən, vətəndaş cəmiyyəti institutlarının seçki maarifçiliyi, seçkilərin monitorinqi və müşahidəsinə hazırlıq fəaliyyətlərinə, paytaxtda və regionlarda seçicilərlə görüşlərin və tədbirlərin təşkilinə hər hansı müdaxilə və əngəllər müşahidə edilmədi.

Prezident seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən 8 nəfərin namizədliyi qeydə alınmışdı. Onlardan 6 nəfərin namizədliyini siyasi partiyalar, bir nəfərin namizədliyini təşəbbüs qrupu irəli sürmüşdü. Bir nəfər isə öz təşəbbüsü ilə seçkiyə qatılmışdı. Beləliklə, bu seçki marafonunda 8 namizəd mübarizə apardı.

Seçki prosesinin mühüm fazalarından biri də seçkiqabağı təşviqat mərhələsidir. Seçkilərə start verildikdən sonra qeydə alınmış 8 prezidentliyə namizədin öz platformalarını sərbəst surətdə seçicilərə çatdırmaları üçün qanunvericilikdə nəzərdə tutulmuş bütün imkanlar və istisnasız olaraq bərabər şərait təmin olundu. Seçkiqabağı təşviqat subyektləri yaradılmış imkanlardan heç bir maneə olmadan sərbəst şəkildə istifadə etdilər. Namizədlər həm də kütləvi-informasiya vasitələrində ödənişsiz və ödənişli təşviqat həyata keçirdilər. Ödənişli seçkiqabağı təşviqatda iştirak etmək üçün 35 KİV (9 qəzet, 19 xəbər agentliyi, 7 televiziya) MSK-ya müraciət etmişdi. Bununla yanaşı - "Azərbaycan", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və İctimai televiziyada namizədlərin həm də ödənişsiz təşviqatı üçün imkanlar yaradılmışdı.

### Azad, ədalətli və şəffaf səsvermə keçirildi

Aprelin 11-də prezident seçkiləri kampaniyası ən mühüm mərhələsinə qədəm qoydu. Həmin gün seçici hüququna malik Azərbaycan vətəndaşları ölkə üzrə 125 seçki dairəsinin 5641 seçki məntəqəsində səs verdilər. Ümumilikdə seçicilərin 74,3 faizi səsvermədə iştirak etdi. Bu, çox yüksək göstərici olmaqla Azərbaycan seçicilərinin seçkilərə yüksək marağının və onların növbəti 7 ildə öz talelərinə olan çox dolğun münasibətinin göstəricisi idi. Seçkinin qalibi - Azərbaycan Respublikasının fəaliyyətdə olan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev oldu. O, seçicilərin 86 faizinin etimadını qazandı. Bu o deməkdir ki, səsvermədə iştirak etmiş seçicilərin 3 milyon 397 min 664 nəfəri səsini cənab İlham Əliyevə verib.

Seçkilərdə şəffaflığı nümayiş etdirmək və səsvermənin nəticələrini operativ şəkildə dünyaya çatdırmaq üçün MSK Katibliyinin İnformasiya Mərkəzi çox səmərəli fəaliyyət göstərdi, gün ərzində səsvermənin gedişi barədə ictimaiyyətə 5 dəfə məlumat verdi.

Azərbaycanda 2008-ci ildən başlayaraq tətbiq olunan və seçki məntəqələrindən kənarda internet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralardan istifadə təcrübəsi bu seçkilərdə də davam etdirildi. Beləliklə, respublikanın işğal olunmuş əraziləri istisna olmaqla bütün coğrafiyasını əhatə edən 20 faizədək seçki məntəqələrində quraşdırılmış veb-kameralar vasitəsilə səsvermə günü seçkiləri "online" izləmə imkanları təmin olundu. Beləliklə, veb-kameraların tətbiqi əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də seçkilərin şəffaflığının təmin olunması işinə dəyərli töhfə verdi.

Seçkiləri yerli və beynəlxalq müşahidəçilər izlədilər. Bunun üçün MSK-da 58 min 175 nəfər yerli, 894 nəfər xarici müşahidəçi qeydə alınmışdı. Xarici müşahidəçilər 61 təşkilatı və 59 dövləti təmsil edirdilər. Xarici müşahidəçilər AŞ Parlament Assambleyası, MDB Parlament Assambleyası, Avropa Parlamenti, GUAM, ATƏT Parlament Assambleyası, TÜRK PA, Baltik Assambleyası, Şanxay Əməkdaşlıq Təşkilatı, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupu, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası, Asiya Parlament Assambleyası, Azadlıq və Demokratiya Fondu və digər beynəlxalq təşkilatların nümayəndələri idilər.

### Müşahidəçilər ölkəmizin demokratiya yolu ilə inkişafının şahidi oldular

Seçkini müşahidə edən xarici müşahidəçilər öz rəylərində, açıqlamalarında səsvermənin şəffaf keçirildiyini və ölkəmizin demokratiya yolu ilə inkişaf etməsinin şahidi olduqlarını birmənalı şəkildə bəyan etdilər. Beynəlxalq müşahidəçilər keçirdikləri mətbuat konfranslarında yekdilliklə Azərbaycanın demokratiya yolu ilə uğurla irəlilədiyini diqqətə çatdırdılar. Beynəlxalq müşahidəçilər Azərbaycanın demokratik seçkilərin keçirilməsinə görə bir çox ölkələrə örnək olduğunu birmənalı şəkildə qeyd etdilər.

Bundan başqa, prezident seçkiləri xarici jurnalistlərin təmsil olunduğu nüfuzlu beynəlxalq KİV tərəfindən də izlənildi. Məsələn, "Rossiya 24", "NTV", "Beşinci kanal", habelə TASS, "RİA Novosti" informasiya agentlikləri və "Nezavisimaya qazeta" qəzetlərində Azərbaycanda prezident seçkilərinin gedişini və hazırkı Prezident İlham Əliyevin inamlı qələbəsini geniş işıqlandırıb, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan liderini təbrik etməsini diqqətə çatdırıblar.

ABŞ-ın "The Associated Press" agentliyinin yaydığı informasiyada Azərbaycan Prezidenti İlham Əliyevin özünü sabitliyin təminatçısı kimi təsdiq etdiyi qeyd olunur. Bu informasiyanı ABŞ-ın aparıcı media orqanları olan "The Washington Post" və "abcnews" nəşrləri də təqdim edib.

Uğurla başa çatan prezident seçkilərinin nəticələri bütün beynəlxalq siyasi dairələr tərəfindən yüksək qiymətləndirildi. Hazırda yenidən Prezident seçilmiş İlham Əliyevə təbriklər gəlməkdə davam edir. Bütövlükdə bu seçki Azərbaycanda demokratiyanın növbəti təntənəsi oldu. Xalqımız azad və ədalətli şəkildə öz seçimini edərək ölkəmizdə son 15 ildə həyata keçirilən uğurlu siyasətin davamına səs verdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Fürsətdən istifadə edərək Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm.

Avropa İnsan Hüquqları Konvensiyasına əsaslanan insan hüquqları, demokratiya və qanunun aliliyi standartlarının üstünlüyünün Azərbaycanda təmin olunması istiqamətində Sizinlə sıx işləmək niyyətindəyəm.

*Səmimiyyətlə,*

***Torbyorn YAQLAND,***
***Avropa Şurasının Baş katibi***

*Strasburq, 13 aprel 2018-ci il*

---

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Latviya xalqı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin son illərdə sürətlə inkişaf etməsindən olduqca məmnunam. Bu xoş fürsətdən istifadə edərək, Azərbaycan ilə Latviya arasındakı əməkdaşlığın bundan sonra daha da möhkəmləndirilməsinə sadiq olduğumuzu bir daha bəyan edirəm.

Zati-aliləri, icazə verin, Sizə ən dərin ehtiramımı və ən xoş arzularımı bildirim.

*Hörmətlə,*

***Raymonds VEYONİS,***
***Latviya Respublikasının Prezidenti***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Əminəm ki, Sizin zəngin təcrübəniz və peşəkarlığınız ölkənizin vətəndaşlarının rifahı naminə daha böyük tərəqqiyə nail olmağa imkan verəcəkdir.

Bosniya və Herseqovina Azərbaycanın səmimi dostudur və Siz qarşılıqlı əməkdaşlığın dərinləşməsinə və birgə layihələrin gerçəkləşməsinə töhfə verəcəyimizə əmin ola bilərsiniz.

Cənab Prezident, sevindirici haldır ki, Siz yeni prezidentlik dövründə tezliklə Bosniya və Herseqovinaya səfər edəcəksiniz. Bu, heç şübhəsiz ki, xalqlarımız arasında əməkdaşlığın və ənənəvi dostluğun daha da möhkəmlənməsinə töhfə olacaqdır.

Bir daha Sizə dərin ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

***Bakir İZETBEQOVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizə və dost xalqınıza ən səmimi təbriklərimi çatdırıram. Cənab Prezident, Birləşmiş Ərəb Əmirlikləri xalqının Azərbaycan xalqının sevincinə şərik olduğunu dost xalqınıza çatdırmağı xahiş edirəm.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, davamlı uğurlar, dost xalqınıza isə xeyir-bərəkət və əmin-amanlıq arzu edirəm.

Xahiş edirəm, səmimi salamlarımı, ən yüksək ehtiramımı qəbul edin.

*Dərin hörmətlə,*

***Xəlifə bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

---

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə Sizi Serb Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan vətəndaşlarının rifahı naminə gördüyünüz işlər ölkənizin qarşıdakı illərdə daha yüksək nailiyyətlər qazanmasına imkan verəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Serb Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələri daha da inkişaf etdirmək əzmində olduğumu bir daha vurğulamaq istərdim.

Zati-aliləri, ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar arzulayır və dərin ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

***Milorad DODİK,***
***Bosniya və Herseqovinanın Serb Respublikasının Prezidenti***

## Pambıqçılığın inkişafı çoxsaylı iş yerlərinin açılmasına imkan verir

**Pambıqçılığın Azərbaycan iqtisadiyyatının inkişafına hərtərəfli təkan verdiyi danılmazdır. Bu sahənin genişləndirilməsi ilə qeyri-neft sektorunun əsas qolu olan kənd təsərrüfatı inkişaf edir.**



Ölkənin ixrac potensialı artır. Çünki pambıq ölkəyə gəlir gətirən əsas məhsullardan biridir. Pambıqçılıq inkişaf etdikcə qeyri-neft sənayesinin şaxələndirilməsinə də imkan yaranır, yeni emal müəssisələri açılır. Beləliklə, təkcə pambıqçılıq rayonlarında deyil, ölkənin digər şəhər və bölgələrində də yeni iş yerləri yaranır.

Pambıqçılıq iqtisadiyyatın əməktutumlu sahələrindən biridir. Bu sahənin inkişafı ilə artıq çoxsaylı yeni iş yerləri açılıb. Bütövlükdə son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 min nəfərə yaxındır.

Dövlətin pambıqçılığı inkişaf etdirərək ön plana çəkdiyi məsələlərdən biri də məhz sosial amildir, bölgələrdə yaşayan əhalinin işlə təminatı, güzəranının yaxşılaşdırılmasıdır.

Kənd təsərrüfatının, o cümlədən pambıqçılığın inkişafı ilə kəndə yeni nəfəs, yeni əhvali-ruhiyyə gəlib. Əvvəllər iş dalınca şəhərə üz tutan kənd sakinlərinin çoxu öz ev-eşiyinə dönüb. Onlar həvəslə torpağı əkib-becərir, ailələrini dolandırırlar. İnsanlar gəlir əldə etdikcə torpağa daha çox bağlanırlar.

Saatlı rayonunun Mircəlal kənd sakini Nizami Məmmədov deyir ki, onun başçılıq etdiyi fermer təsərrüfatının gəliri ilə 14 ailə öz dolanışığını təmin edir. Əllə məhsul yığımından gündəlik qazanc 60 manatdan çox olur. Keçən mövsümdə məhsul satışından ümumi gəlir 84 min 250 manata, xalis gəlir 51 min manata çatıb. Bunun 16 min 850 manatını dövlət dəstəyi olan subsidiya təşkil edib.

Biləsuvar rayonunun Aşağı Cürəli kəndinin sakini, fermer Fazil Musayev isə ötən mövsümdə ailə üzvləri ilə birlikdə 16 hektar sahədən 80 ton pambıq toplayıb. Birinci dərəcəli "Əmək" ordeni ilə təltif olunub. Fermerlərdən Fatma Hüseynova və Tofiq İsmayılov da birinci dərəcəli "Əmək" ordeninə layiq görülüblər.

Pambıqçılığın inkişafı sayəsində keçən il Bərdə rayonunun 8 mindən çox sakini işlə təmin olunub.

*Ardı 3-cü səh.*

## Müasir suvarma sistemi aqrar sektorun "qan damarı"dır

### *Həyata keçirilən meliorativ tədbirlər nəticəsiz qalmır*

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında sosial-iqtisadi sahədə qazanılan uğurları yüksək qiymətləndirərək qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişdir.



Dövlət başçısı su ilə təminat məsələlərindən danışarkən demişdir: "İçməli su ilə bağlı layihələr uğurla gedir. Demək olar ki, bütün şəhərlərdə bu işlər ya icra edilib, ya da ki, icradadır. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki indi Bakı şəhərinin 80 faizdən çoxu 24 saat içməli su ilə təmin edilir. Əlbəttə ki, bu rəqəm 100 faiz olmalıdır. Əminəm ki, biz buna da çatacağıq. Bütün bölgələrdə, bütün şəhərlərdə bu layihələr icra edilir... Bu il meliorativ tədbirlər nəzərdə tutulur. Üç yüzdən çox subartezian quyusu qazılmalıdır. Bu il ən azı, 100 min hektar suvarılmayan torpaqlara suyun verilməsi təmin edilməlidir".

Məlum olduğu kimi, Azərbaycan arid zonasında yerləşir və su ehtiyatlarımız olduqca məhduddur. Ölkədə yerüstü su ehtiyatları 32,2 milyard kubmetr təşkil edir ki, bu da quraqlıq illərində 2,6 milyard kubmetrə qədər azalır. Yeraltı su ehtiyatları isə 5,2 milyard kubmetrdir. Beləliklə, Azərbaycanda orta illik su çatışmazlığı 4,5-5 milyard kubmetr arasında dəyişir. Yerüstü su ehtiyatlarının 70 faizi isə ölkə hüdudlarından xaricdə formalaşır və bu ölkəmizin su sarıdan asılılığı deməkdir.

Azərbaycanda Xəzər dənizi hövzəsinə daxil olan 8350 çay mövcuddur ki, onların da çoxunun uzunluğu 10 kilometrdən azdır. Üstəlik, ilin isti aylarında bu çayların bir çoxunun suyu quruyur. Digər tərəfdən isə yaz və yay aylarında dağ çaylarının sel-suları əkin sahələrinə ziyan vurur. Biz hələ ümumi su tutumu 640 milyon kubmetr su ehtiyatı olan Sərsəng su anbarının Ermənistan tərəfindən işğal edilən ərazidə qalmasını demirik. İşğalçılar əkin vaxtlarında anbardan gələn suyu bağlayır, payız aylarında isə əksinə, suyu daha çox buraxaraq əkin sahələrinə ziyan vururlar. "Sərsəng su anbarı 1992-ci ildən Ermənistanın nəzarətindədir.

*Ardı 3-cü səh.*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı anlaşmaya və hörmətə əsaslanan ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına və möhkəmləndirilməsinə Sizin verdiyiniz əvəzsiz töhfələri bir daha vurğulamaq istərdim.

Əminəm ki, Siz Azərbaycan xalqının rifahı, habelə sülhün, təhlükəsizliyin və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi naminə milli və beynəlxalq layihələrin gerçəkləşdirilməsi yolunda səylərinizi, təcrübə və biliklərinizi bundan sonra da əsirgəməyəcəksiniz.

İcazə verin, bir daha Sizə möhkəm cansağlığı, uzun ömür, firavanlıq və ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayım.

*Hörmətlə,*

***Pavel FİLİP,***
***Moldova Respublikasının Baş naziri***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə və dost xalqınıza ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınıza isə müdrik rəhbərliyiniz ilə davamlı tərəqqi və rifah arzulayıram.

Xahiş edirəm, səmimi salamlarımı, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Məhəmməd bin Raşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazir və Dubayın hökmdarı***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Bu seçkilərdə Sizin inamlı qələbəniz Azərbaycan xalqının yüksək etimadına sahib olduğunuza əyani sübutdur. Bu, sadə insanların həyat şəraitini yaxşılaşdırmaq, Azərbaycanın regionda və bütün dünyada nüfuzunu artırmaq istiqamətində son illər gördüyünüz işlərə verilən yüksək qiymətdir. Əminəm ki, yeni səlahiyyət müddətiniz ərzində Siz ölkənizin inkişafı və rifahı üçün fəal və yorulmadan çalışmaqda davam edəcəksiniz. Mən həmçinin inanıram ki, Sizin zəngin siyasi təcrübəniz ölkənizin beynəlxalq aləmdə və Qara dəniz regionunda aparıcı rolunun bundan sonra da genişlənməsinə töhfə verəcəkdir.

Bolqarıstan ilə Azərbaycan arasında əlaqələr xalqlarımızın mənafeyi naminə davamlı inkişaf edir. Fəxr edirəm ki, Sizinlə birlikdə biz ölkələrimizin təkcə iqtisadi sahədə deyil, həm də mədəni və mənəvi sahələrdə sıx əməkdaşlığının etibarlı əsaslarının qoyulmasına nail olmuşuq. Bu baxımdan, xalqlarımız arasındakı dostluq əlaqələrinin gücləndirilməsinə Sizin şəxsi töhfənizi və sadiqliyinizi çox yüksək qiymətləndirirəm. Öz tərəfimdən bildirirəm ki, ikitərəfli münasibətlərimizin inkişafına bundan sonra da hər cür dəstək göstərməyə hazıram.

Əziz dostum, Sizinlə keçirdiyim bütün görüşləri məmnuniyyətlə xatırlayıram. Həmin görüşlərdə Sizin yüksək intellektinizə, sağlam mühakimənizə və diplomatik məharətinizə valeh olmuşam. Ən əsası isə odur ki, Siz həmişə mürəkkəb siyasi məsələlərin həllində ümumi razılığa gəlməyə səy göstərmisiniz. Əminəm ki, konsensus axtarışı, başqalarının maraqlarına hörmət və milli maraqları qorumaq yeni prezidentlik dövründə də Sizin fəaliyyətinizin əsas prinsiplərindən olacaq.

Sizinlə yeni görüşlərimizi səbirsizliklə gözləyir və bu xoş fürsətdən istifadə edərək, çox məsuliyyətli işinizdə Sizə cansağlığı və uğurlar arzulayıram.

Cənab Prezident, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

*Hörmətlə,*

***Georgi PIRVANOV,***
***2002-2012-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti***

---

Möhtərəm cənab Prezident!

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm. Əvvəlki illərdə hədəf seçdiyiniz islahatlar yolu və ixracın şaxələndirilməsi gündəliyinin davam etdirilməsində Sizə səmimi-qəlbdən uğurlar arzulayıram.

Sizi 2019-cu il yanvarın 22-25-də İsveçrədə, Davos-Klostersdə keçiriləcək Dünya İqtisadi Forumunun 49-cu illik görüşünə dəvət etməkdən məmnunluq duyuram.

Bu ilin yanvar ayında keçirilən illik görüş bir daha nümayiş etdirdi ki, ilin əvvəllərində qlobal gündəliyi formalaşdıran çoxtərəfli toplantıya həmişəkindən daha böyük ehtiyac var idi.

"Cənub qaz dəhlizi" vasitəsilə Avropanın enerji təhlükəsizliyini gücləndirmək istiqamətində davam edən səylərlə yanaşı, Azərbaycanın Çin və Avropa arasında tranzit qovşağı kimi artan vacib rolunu nəzərə alaraq, Sizin tədbirdə iştirakınız ölkənizin regional və beynəlxalq əməkdaşlığa töhfəsini daha da artıracaq.

Görüşdə iştirak edəcək 3 min hökumət, biznes və vətəndaş cəmiyyəti lideri adından, Sizin tədbirdə fəal iştirakınızı səbirsizliklə gözləyirəm.

*Hörmətlə,*

***Professor Klaus ŞVAB,***
***Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri***

---

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Avropa Olimpiya Komitələrinin adından səmimi qəlbdən təbrik edirik.

Bu qələbə Sizin əvvəlki illərdə dövlət başçısı vəzifəsində həyata keçirdiyiniz mükəmməl fəaliyyətin yüksək qiymətləndirilməsi, həmçinin Azərbaycan xalqının ölkənin tərəqqisinin hərəkətverici qüvvəsi kimi Sizə bəslədiyi etimadın göstəricisidir. Məhz Sizin rəhbərliyinizlə Bakıda və ölkənin bütün regionlarında inkişaf və yenidənqurma, eləcə də müasirləşmə işlərinin geniş vüsət alması Azərbaycanı dünyanın diqqət mərkəzinə çevirib.

İcazə verin, bu fürsətdən istifadə edərək, zati-aliləri, Sizinlə və Milli Olimpiya Komitəsi ilə aramızda olan yüksək dəyərləndirdiyimiz dost münasibətlərinə görə dərin minnətdarlığımızı bildirək.

Ölkənizin Avropa Oyunlarına yüksək səviyyədə evsahibliyi etməsi, eləcə də növbəti Avropa Gənclər Olimpiya Festivalının məhz Bakıda keçirilməsi ölkənin Avropada güclü nüfuza malik olmasını təsdiq edir. Bu isə ölkənin müasir, dinamik inkişaf edən xarakterinin və burada necə əməksevər və dost insanların yaşadığının bariz nümunəsidir.

Ali dövləti fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayırıq. Bu il mayın 11-12-də Belqrad şəhərində Sizinlə görüşməyə ümidvarıq.

*Hörmətlə,*

***Yanes KOSYANÇİÇ,***
***Avropa Olimpiya Komitələrinin prezidenti***

***Raffaele PAGNOZZİ,***
***Avropa Olimpiya Komitələrinin baş katibi***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi və dost xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınıza isə müdrik rəhbərliyiniz ilə davamlı inkişaf və rifah arzulayıram.

Cənab Prezident, səmimi salamlarımı, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Abu-Dabinin vəliəhdi, Silahlı Qüvvələrin Ali Baş Komandanının müavini***

---

Çox hörmətli Prezident İlham Heydər oğlu!

Xalqın iradəsi ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Rusiya Müsəlmanları Mərkəzi Dini İdarəsi adından və şəxsən öz adımdan səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Həqiqətən də Rusiyanın ənənəvi dostu olan bir dövlətin ali vəzifəsinə yenidən seçilməyiniz Sizin simanızda atanız Heydər Əliyevin layiqli varisini və işinin davamçısını görən, Sizi öz xalqını sevimli Vətənin - Azərbaycan Respublikasının gələcək tərəqqisi və rifahı yolunda yeni-yeni uğurlara və qələbələrə doğru ləyaqətlə aparan bir ümummilli lider kimi qəbul edən bütün Azərbaycan xalqının səmimi iradəsinin təzahürüdür.

Ölkənizin və Müstəqil Dövlətlər Birliyinin parlaq təmsilçisi və tanınmış lideri kimi Siz öz şərəfli əmək bioqrafiyanızda müasir Azərbaycanın davamlı sosial-iqtisadi inkişafının ana xəttini müəyyənləşdirən bir sıra mühüm nailiyyətlər əldə etmiş və bununla da xalqınızın yüksək etimadını qazanmısınız. Azərbaycan xalqının ümidləri islamın ümumbəşəri və ənənəvi dini dəyərləri ilə vəhdət təşkil edərək yeni işıqlı gələcək qurmağa yönəlmişdir ki, bu gələcəyin də bünövrəsi imana sədaqət və Vətənə xidmət, bütün dünyada sülhün bərqərar olmasıdır.

Biz Rusiya müsəlmanları öz tərəfimizdən ümid edirik ki, ulu babalarımızın vahid mənəvi və mədəni irsinə, ölkələrimizin xalqlarının qardaşlıq münasibətlərinin çoxəsrlik tarixinə, ekstremizmi və beynəlxalq terrorizmi qəbul etməməyə əsaslanan Rusiya-Azərbaycan mehriban qonşuluq münasibətləri bundan sonra da qorunub saxlanılacaq və möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, icazə verin, bir daha Sizə öz ehtiramımızı bildirək və Azərbaycanın yeni tarixindəki bu əlamətdar hadisə münasibətilə mömin rusiyalılar adından Sizə ünvanlanmış ən səmimi təbriklərimizi çatdıraq. Sizə möhkəm cansağlığı arzulayırıq, Vətəninizin rifahı və bütün dünyada sülh naminə xeyirxah niyyətlərinizdə və nəcib əməllərinizdə Uca Allah yardımçınız və himayədarınız olsun.

Azərbaycan xalqına sülh, əmin-amanlıq və rifah arzulayırıq!

*Xeyir-dua və səmimi təbriklərlə,*

***Ali müfti Talqat Səfa TACUDDİN,***
***Rusiya Müsəlmanları Mərkəzi Dini İdarəsinin sədri***

---

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Seçkilər nəticəsində Azərbaycan xalqı dünya birliyində layiqli yer tutan, Sizin müdrik və uzaqgörən rəhbərliyiniz ilə firavanlaşan ölkənizin qarşısında görkəmli xidmətlərinizə yüksək etimad göstərdi. Əminəm ki, Sizin yenidən prezident seçilməyiniz elmin, təhsilin və səhiyyənin daha da inkişaf etməsinə, ölkələrimizin dostluq əlaqələrinin möhkəmlənməsinə şərait yaradacaq.

Sizə və Azərbaycan Respublikasının xalqına cansağlığı, sülh və firavanlıq, yeni qələbələr arzu edirəm.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

---

Möhtərəm cənab Prezident!

Sizi 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu adından təbrik edir, doğma Azərbaycan naminə çoxşaxəli, coşqun və cəsarətli fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirik. Bu inamlı qələbə xalqın Sizə sonsuz etimadının və siyasi iradəsinin ifadəsidir.

Sizin zəngin siyasi təcrübəniz, ulu öndər Heydər Əliyev dövlətçilik ənənələrinə sədaqətiniz, şübhəsiz ki, türkdilli dövlətlər arasındakı çoxtərəfli əməkdaşlığın möhkəmlənməsində, türk dünyasının ayrılmaz hissəsi olan müasir müstəqil Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunun daha da artırılmasında bundan sonra da mühüm rol oynayacaqdır.

Hörmətli cənab Prezident, Sizin bu seçkilərdəki qələbəniz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə olan ən böyük töhfədir. Sizə möhkəm cansağlığı, xalqımızın rifahı naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq.

*Dərin hörmətlə,*

***Günay ƏFƏNDİYEVA,***
***Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

---

Hörmətli cənab Prezident!

2018-ci il aprelin 11-də Azərbaycanda keçirilmiş prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikasının Prezidenti vəzifəsində mürəkkəb beynəlxalq şəraitdə başlanan yeni 7 illik prezidentlik mandatınız Azərbaycan dövlətçiliyinin daha da möhkəmlənməsi ilə əlamətdar olacaq, ölkənin iqtisadi inkişafına yeni təkan verəcək, onun suverenliyinin qorunub saxlanması və ərazi bütövlüyünün bərpa edilməsi məqsədilə Silahlı Qüvvələrin möhkəmlənməsinə xidmət edəcək.

Azərbaycan xalqı Sizin son 15 ildə apardığınız böyük dövlətçilik işini, xüsusən əhalinin rifahının əhəmiyyətli dərəcədə yüksəlməsinə və dövlətimizin dünya arenasında nüfuzunun artmasına (buna görə mən peşəkar diplomat kimi çox fəxr edirəm) Sizin şəxsi töhfənizi yüksək qiymətləndirib. Şəxsən mən dünən ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçkilərində iştirak etdim və bu, mənim həyatımda ən mühüm hadisələrdən biri oldu.

Əminəm ki, Siz xalqın yüksək etimadına güvənərək Azərbaycanın uğurlarını daha da artıracaqsınız. Bu işdə əlimdən gələn köməyi etməyə hazıram. Mənim üçün çətin vaxtda mənə göstərilmiş dəstəyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm və bundan sonra da Sizin sərəncamınızdayam.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, ailə səadəti, məsuliyyətli və şərəfli vəzifənizdə yeni uğurlar arzu edirəm. Azərbaycan xalqına Sizin rəhbərliyinizlə sülh və firavanlıq diləyirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından 100 il, müstəqilliyimizin bərpasından və ölkəmizin tamamilə dağılmaqdan xilas olmasından 25 il sonra Azərbaycan qətiyyətlə irəli gedir. Bu gün bütün bunlar Sizin xidmətinizdir. Ulu Tanrı bundan sonra da ali dövləti vəzifənizi yerinə yetirməkdə Sizə kömək olsun.

*Dərin hörmətlə,*

***Aleksis ŞAHTAXTİNSKİ,***
***ATƏT-in Bakı ofisinin keçmiş rəhbəri***

---

Hörmətli cənab Prezident.

Gürcüstan Neft Məhsulları İdxalatçıları İttifaqı adından Sizi Azərbaycan Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə təbrik edirik. Sizə xoşbəxtlik, cansağlığı, xalqınıza firavanlıq arzu edirik.

*Hörmətlə,*

***Vano MTVRALAŞVİLİ,***
***Gürcüstan Neft Məhsulları İdxalatçıları İttifaqının sədri***

***Vaxtanq İOBAŞVİLİ,***
***Gürcüstan Neft Məhsulları İdxalatçıları İttifaqı sədrinin müavini***

---

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə yeni uğurlar diləməkdən olduqca məmnunam.

Seçkilərdəki parlaq qələbəniz münasibətilə Sizi "Paramount Group" şirkəti adından və şəxsən öz adımdan təbrik edir, gözəl ölkənizə dəstəyimizi əsirgəməməyə sadiq olduğumuzu bildiririk.

Azərbaycan Respublikası ilə əməkdaşlığımızı daha da genişləndirmək məqsədilə strateji qərar qəbul etmişik və Sizin ölkənin inkişafı naminə irəli sürdüyünüz təşəbbüslərə dəstək olaraq müəssisəmizin ölkənizdə digər hansı sahələrdə sərmayə yatıra biləcəyi və ən müasir texnologiyaları təklif edəcəyi imkanlarını araşdırmaq niyyətindəyik.

*Zati-alinizə dərin hörmətlə,*

***Ayvor İÇİKOVİTZ,***
***Afrikadakı "Paramount Group" şirkətinin icraçı direktoru***

---

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizə Şimali Qafqaz Müsəlmanlarını Əlaqələndirmə Mərkəzi adından səmimi təbriklərimizi çatdırım.

Siz çoxmillətli və çoxkonfessiyalı Azərbaycan xalqının mənəviyyatının və vətənpərvərliyinin inkişafının qarantısınız.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası müxtəlif sahələrdə sanballı uğurlar qazanıb. Siz prezident vəzifəsində olduğunuz dövrdə həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda milyonlarla həmvətəninizin hörmətini qazanmısınız.

Sizə Azərbaycan Respublikasının və onun xalqının inkişafı naminə ali dövləti fəaliyyətinizdə səmimi qəlbdən yeni-yeni zəfərlər, möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirik.

*Dərin hörmət və ən xoş arzularla,*

***İsmayıl BERDİYEV,***
***Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzinin sədri***

---

Möhtərəm cənab İlham Əliyev!

Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində layiqli qələbəniz münasibətilə təbrik edirəm. Azərbaycan əhalisinin böyük əksəriyyəti sabitlik və mütərəqqi inkişaf yolunun davam etdirilməsinə səs verdi.

Sizin zəngin təcrübəniz, peşəkarlığınız, qarşıda duran son dərəcə mühüm vəzifələri uğurla həll etmək bacarığınız Azərbaycan Respublikasının bundan sonrakı inkişafı üçün də zəmin olacaqdır. Azərbaycan ilə Rusiya arasında konstruktiv əməkdaşlığın davam edəcəyinə ümidvaram.

Sizə möhkəm cansağlığı, tükənməz enerji və bütün təşəbbüslərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Mayis MƏMMƏDOV,***
***"Rus-Azərbaycan Evi" Regional İctimai Təşkilatının sədri, Novosibirsk Vilayətinin Qanunverici Məclisinin deputatı***

---

Hörmətli cənab Prezident!

Vətənimizdə keçirilən prezident seçkilərində tarixi qələbəniz münasibətilə Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun çoxminli üzvləri adından və şəxsən öz adımdan Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycandan kənarda yaşayan soydaşlarımız əmindirlər ki, Vətənimizin çiçəklənməsi, ölkəmizin iqtisadi inkişafının gücləndirilməsi, sabitliyin qorunması, xüsusən də diaspor quruculuğu istiqamətində fəaliyyətinizi bundan sonra da əzmlə davam etdirəcəksiniz.

Bir daha əmin olun ki, xaricdə, xüsusilə də Ukraynada yaşayan azərbaycanlılar Vətənimiz Azərbaycanın daha da inkişafı istiqamətində atdığınız hər addımda yanınızdadırlar.

Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, xalqımıza sülh və firavanlıq arzu edirik.

*Hörmətlə,*

***Hikmət CAVADOV,***
***Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri***

---

Möhtərəm cənab Prezident!

İcazə verin, ölkəmizdə keçirilmiş prezident seçkilərində inamlı qələbə münasibətilə Sizi "Azərbaycan-Ukrayna sahibkarları və sənayeçiləri" Cəmiyyəti adından səmimi qəlbdən təbrik edək və Azərbaycan xalqının rifahı naminə prezidentlik fəaliyyətinizdə yeni uğurlar arzulayaq.

Doğma Azərbaycanımızda sabitliyin, əmin-amanlığın qorunması, ölkəmizin daha da inkişafı, tərəqqisi, beynəlxalq nüfuzunun artması istiqamətində həyata keçirdiyiniz müdrik siyasəti dəstəkləyir və bu yolda hər zaman Sizin yanınızdayıq. İş adamları cəmiyyəti olaraq bundan sonra da Azərbaycan-Ukrayna strateji tərəfdaşlığının güclənməsində səylərimizi əsirgəməyəcəyik.

Sizə möhkəm cansağlığı, uğurlar diləyir və səmimi arzularımızı çatdırıram.

*Hörmətlə,*

***Əli ƏLİYEV,***
***"Azərbaycan-Ukrayna sahibkarları və sənayeçiləri" Cəmiyyətinin sədri***

---

Hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi şəxsən öz adımdan və Dərbənd şəhərindəki Azərbaycan Dövlət Dram Teatrının kollektivi adından ürəkdən təbrik edirəm.

Seçkilərdə inamlı qələbəniz Sizin rəhbərliyinizlə həyata keçirilən sosial-iqtisadi islahatların, Azərbaycanın xarici siyasət kursunun xalq tərəfindən hərtərəfli dəstəkləndiyini göstərir.

Sizin rəhbərliyinizlə Azərbaycanın imici dünyada ən yüksək zirvəyə qalxıb.

Dağıstan azərbaycanlıları qardaş Azərbaycanın uğurlarından həmişə qürur duyur. Biz fəxr edirik ki, Dərbənddə mərkəzi küçələrdən birinə ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin adı verilib. Heydər Əliyev Fondu şəhərimizdə məktəbləri abadlaşdırıb.

Biz Dərbənddə Azərbaycan teatrının inkişafına Sizin töhfənizə və dəstəyinizə görə çox minnətdarıq və bunu yüksək qiymətləndiririk.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, sülh, firavanlıq diləyir, ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

***Firdovsi ƏSGƏROV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının əməkdar mədəniyyət işçisi, Dərbənd Azərbaycan Dövlət Dram Teatrının direktoru***

---

Hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Rusiyanın Tomsk vilayətindəki "Azərbaycan Mədəni-Milli Mərkəzi" Regional İctimai Təşkilatının bütün üzvləri adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ali dövləti fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar və möhkəm cansağlığı arzu edirik.

*Hörmətlə,*

***Ələkbər RƏHİMOV,***
***Rusiya Federasiyasının Tomsk vilayətindəki "Azərbaycan Mədəni-Milli Mərkəzi" Regional İctimai Təşkilatının sədri***

---

# Ulu öndər Heydər Əliyevin 95-ci ildönümü münasibətilə Ərzurumda beynəlxalq simpozium keçirilib



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Türkiyənin Ərzurum şəhərində beynəlxalq simpozium keçirilib.

AZƏRTAC xəbər verir ki, Ərzurum Atatürk Universitetində (AU) iki gün davam edən simpoziumda rəsmi şəxslər, Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Rusiyadan ziyalılar, eləcə də AU-nun kollektivi iştirak edib.

Simpozium Azərbaycan Dillər Universitetinin (ADU) təşəbbüsü ilə 11 ölkənin 13 ali məktəbində təşkil olunan tədbirlər çərçivəsində keçirilib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin zəngin, mənalı həyat və fəaliyyətini əks etdirən fotosərginin açılışı olub.

Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Heydər Əliyev şəxsiyyətinin ucalığını tərənnüm edən sənədli film nümayiş olunub.

Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, ölkəmizin Qarsdakı baş konsulu Nuru Quliyev, Ərzurum valisi Seyfəddin Azizoğlu, Ərzurum bələdiyyəsinin sədri Mehmət Sekmən, Atatürk Universitetinin rektoru Ömer Çomaklı, Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmov və başqaları çıxışlarında ulu öndər Heydər Əliyevin nəsillərə örnək olan siyasi fəaliyyətindən danışıblar. Diqqətə çatdırılıb ki, Heydər Əliyev təxminən yarım əsrə yaxın dövrü əhatə edən siyasi fəaliyyəti ilə Azərbaycan xalqının işıqlı gələcəyinə xidmət edib. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Heydər Əliyevin reallaşdırdığı strategiya Azərbaycan və Türkiyə də daxil olmaqla, böyük bir coğrafiyada inkişaf istiqamətlərini müəyyənləşdirib.

Simpoziumda "Heydər Əliyev və türk dünyası", "Heydər Əliyev və milli ideologiya modeli", "Heydər Əliyev milli neft strategiyasının banisi kimi", "Heydər Əliyev və milli ləyaqətin qorunmasının metodologiyası", "Heydər Əliyev siyasətində milliləşmə və türkləşmə amili" və s. mövzularda məruzələr dinlənilib. Məruzəçilər diqqətə çatdırıblar ki, Heydər Əliyevin siyasi fəaliyyətinin bütün istiqamətləri və idarəçilik metodları dərindən araşdırılmalı, ali məktəblərdə tədris olunmalıdır.

# Prezident İlham Əliyev: "Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi üçün bütün sahələrdə daha fəal olmalıyıq"

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 54-cü kitabı çapdan çıxıb




Nəşrdə dövlət başçısının Sinqapur Respublikasına dövlət səfərinə, Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri zamanı keçirdiyi görüşlərə dair materiallar, "CNN International" televiziya kanalına müsahibəsinin mətni, habelə Azərbaycana işgüzar səfərə gəlmiş Ukrayna Prezidenti ilə görüşünə dair informasiya yer alıb.

Çoxcildliyin bu kitabına Azərbaycan Prezidentinin Rusiya, ABŞ, Hindistan, Ukrayna, Bolqarıstan, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Serbiya, Argentina, Latviya, Polşa, Böyük Britaniya və digər dövlətlərin, Avropa İttifaqı, Avropa Komissiyası, ATƏT, AŞ PA, Beynəlxalq Telekommunikasiya İttifaqı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı və digər beynəlxalq qurumların ölkəmizə səfər etmiş yüksək vəzifəli şəxslərini, nümayəndə heyətlərini qəbul etməsinə dair materiallar toplanıb.

Nəşrdə Azərbaycan Prezidentinin ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin, o cümlədən VII İnternet İdarəçilik Forumunun, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assambleyasının, "Xəzər: ətraf mühit üçün texnologiyalar" Beynəlxalq Ətraf Mühit Sərgisinin, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin 40-cı plenar sessiyasının, "Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi" I Beynəlxalq Bakı Forumunun, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının IV Qurultayının və digər tədbirlərin iştirakçılarına müraciətləri yer alıb.

Dövlət başçısının respublikamızın paytaxtında keçirilən tədbirlərdə, o cümlədən "Bakutel-2012" XVIII Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində, Azərbaycan Milli Olimpiya Komitəsinin 20 illik yubileyinə və Yeni Azərbaycan Partiyasının yaradılmasının 20 illiyinə həsr olunmuş təntənəli mərasimlərdə iştirakına və çıxışlarına dair materiallar daxil edilib.

Bu cilddə Azərbaycan Prezidentinin Füzuli və Qusar rayonlarına, Sumqayıt şəhərinə səfəri zamanı regionlarda mövcud problemlərin aradan qaldırılması istiqamətində həyata keçirilən sosial proqramların icrasına, bölgə ictimaiyyəti ilə görüşlərinə, bölgələrdə və respublikanın paytaxtında aparılan abadlıq-quruculuq işləri ilə tanışlığına, mədəni-məişət, sosial-sənaye müəssisələrinin açılışında iştirakına dair materiallar, Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr edilmiş iclasda nitqləri və digər tədbirlərdə çıxışlar əksini tapıb.

Bu cilddə Prezident İlham Əliyevin "Rossiya-24" telekanalına müsahibəsinin mətni ilə də tanış olmaq mümkündür.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 54-cü cildin hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

"Mən heç şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu deməyə bir neçə əsas amil var - iqtisadi imkanlar, beynəlxalq mövqemiz, beynəlxalq hüquq normaları və Azərbaycan Ordusunun qüdrəti. Mən əminəm və bir daha demək istəyirəm ki, işğala son qoyulandan sonra hazırda işğal altında olan bütün torpaqlar gözəlləşəcək, orada abadlıq işləri aparılacaq, yeni müəssisələr yaradılacaqdır. Biz öz tarixi və dini abidələrimizi bərpa edəcəyik. Erməni faşizminin, erməni vəhşiliyinin törətdiyi cinayətlərin fəsadlarını aradan qaldıracağıq. Ölkəmiz uğurla inkişaf edəcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu etmək üçün biz bütün sahələrdə daha fəal olmalıyıq. İlk növbədə, ölkə daxilində proseslər müsbət istiqamətdə gedir və getməlidir."

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 54-cü kitabında yer alan bu fikirləri dövlət başçısı 2012-ci il dekabrın 15-də Füzuli rayonuna səfəri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 54-cü kitabındakı materiallar 2012-ci ilin noyabrından 2013-cü ilin fevralınadək olan dövrü əhatə edir.

Bu kitab Azərbaycan Prezidentinin BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi ilə görüşünə dair informasiya ilə başlanır.

**Hər bir insanın öz ömürnaməsi, həyat tarixçəsi olur. Bu ömürnamə zamanın hansı bir tarixində isə başlayır, hansında isə bitir. Görkəmli oftalmoloq, minlərin gözlərinə nur bəxş etmiş istedadlı həkim, yorulmaz alim, akademik Zərifə Əliyevanın ömürnaməsi baharda başlamışdı. Cəmi 62 il davam etmişdi. O, 1923-cü il aprelin 28-də dünyaya göz açmışdı. 1985-ci il aprelin 15-də dünyadan köçmüşdü. Zərifə Əliyeva o insanlardan idi ki, onun haqqında "həyat tarixçəsi bitdi" demək olmaz. Əksinə, 33 il əvvəl ailəsini, doğmalarını, dostlarını, pasientlərini, onu sevən xalqını tərk edərkən əbədiyyətə, tarixə qovuşmuşdur.**



# XOŞ XATİRƏLƏRLƏ YAD EDİLİR

Zərifə xanım Əliyeva haqqında bir həkim, alim, pedaqoq, əsl Azərbaycan qadını kimi çox danışılıb, çox yazılıb. Bununla belə, onu vaxtilə yaxından tanıyanların, ünsiyyətdə olanların qəlbində elə xatirələr yaşayır ki, həmin xatirələrin çözülməsi bu işıqlı, nurlu xanımın necə böyük bir insan və alim olduğunu bir daha aydın göstərir.

Mənə də akademik Zərifə Əliyevanı yaxından tanımaq, onunla ünsiyyət saxlamaq xoşbəxtliyi qismət olub. Anam, professor Zəhra Quliyeva ilə yaxın rəfiqə, dost idilər... Odur ki, mən Zərifə xanımın necə şəxsiyyət olduğunu həm gördüyüm hadisələrdən, həm də anamın söhbətlərindən, xatirələrindən eşidib bilmişəm.

Onların tanışlığı ilk gənclik dövründən, hələ N.Nərimanov adına Dövlət Tibb İnstitutunun divarları arxasındakı tələbəlik illərindən başlamışdı. Anam təkcə Zərifə xanımı deyil, onun atası, görkəmli ictimai xadim Əziz Əliyevə, mehriban və xeyirxah qadın olan anası Leyla xanıma da böyük hörmət bəsləmiş, onları ürəkdən sevmişdi. Bundan əlavə, Zərifə Əliyevanın böyük bacısı Ləzifə xanım Tibb İnstitutunda onlara dərs demişdi. Anam danışırdı ki, onun gözünü oftalmologiya elminə Ləzifə xanım açıb. Üstəlik, Zərifə xanımın qardaşı - ensiklopedik biliyə malik, sonralar tanınmış həkim və alim olan Tamerlan Əliyev də onlarla eyni dövrdə təhsil almışdı.

Zərifə xanım Əziz Əliyevin sevimli övladı, onun böyük ailəsinin, necə deyərlər, gözü idi. O, hər şeydən öncə şəfalı əlləri, dərin biliyi olan həkim idi. 1947-ci ildə ali tibb təhsilini başa çatdırdıqdan sonra Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə kurs keçmişdi. Elmi tədqiqatlara gənc yaşlarından böyük marağı olmuşdu. Bu səbəbdən də Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda həkim-ordinator kimi işə başlamışdır. 1950-ci ildə aspiranturaya daxil olmuş, oranı bitirdikdən sonra sözügedən institutda elmi işçi kimi çalışmışdı.

Bu, o illər idi ki, Azərbaycanda traxoma xəstəliyi baş alıb gedirdi. O zaman həmin xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Odur ki, problemin həlli təkcə oftalmologiya sahəsi üçün deyil, bütövlükdə Azərbaycan səhiyyəsi üçün prioritet hesab edilirdi. Bax, belə bir dövrdə Zərifə Əliyeva bu xəstəliyə qarşı aparılan müalicə və profilaktika tədbirlərinin təşkilinə və həyata keçirilməsinə fəal qoşulmuşdu. Klinikalarda xəstələri müalicə etməklə yanaşı, gənc alim traxomanın geniş yayıldığı rayonlara ezamiyyətlərə gedir, orada çalışan həmkarları qarşısında məruzələr edir, əhali arasında söhbətlər aparırdı.

Başqa sözlə, onun tədqiqatlarının mövzusunu zaman özü müəyyənləşdirmişdi. Alimin həmin istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə edilən "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası ilə nəticələndi. Bundan sonra Zərifə xanım çalışdığı elm ocağında böyük elmi işçi olmuşdur və 1967-ci ilə qədər bu institutda elmi fəaliyyət göstərmişdir.

Zəhra Quliyeva öz xatirələrində həmin illəri belə təcəssüm etdirmişdir: "Zərifə xanım tədqiqat üçün elmi mövzular seçərkən məsələlərə milli və dövlətçilik maraqlarından yanaşırdı. Onun namizədlik dissertasiyası o dövrdə oftalmologiya üçün sosial baxımdan aktual sayılan traxoma ilə mübarizəyə həsr edilmişdi. Traxoma korluq hallarının ən geniş yayılan səbəblərindən biri kimi dəhşətli ictimai bəlaya çevrilmişdi. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, dünyada 400 milyon nəfər traxomaya tutulmuş, 80 milyon insan isə bu səbəbdən kor olmuşdu. Azərbaycanda traxomanın aradan qaldırılması məsələsində Zərifə Əliyevanın araşdırmaları əvəzsiz rol oynamışdı. O, həmin namizədlik işi üzərində işləyərkən yüzlərlə, minlərlə xəstəyə şəfa vermişdi. Öz araşdırmalarını bir neçə müəssisədə aparmışdı. Biz oftalmoloqlar yaxşı bilirik ki, tədqiqatın klinikadan, institutdan kənarda aparılması hansı əziyyətlər hesabına başa gəlir. Bunlara dözüb, ortaya gərgin əməyin uğurlu yekunu olan sanballı bir əsər çıxarması Zərifə xanımın yüksək daxili mütəşəkkilliyindən, məqsədyönlülüyündən xəbər verirdi".

1967-ci ildə Zərifə Əliyevanı Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsində çalışmağa dəvət etmişdilər. Pedaqoji fəaliyyətlə, həkim kadrların təkmilləşdirilməsi ilə məşğul olmasına baxmayaraq, o, yorulmadan tədqiqatlarını da davam etdirmişdi. Oftalmologiyanın o zaman aktual sayılan sahələrinə müraciət edərək onların həllinə var gücü ilə çalışmışdı. Bunlar diaqnostika, qlaukomanın və görmə orqanının iltihabının müalicəsi və s. idi.

Getdikcə alimi oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının patologiyası məşğul edir. Bu problemin aktuallığı sənayedə yaranan bir çox yeni birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiq olunması ilə bağlı idi. Odur ki, Zərifə xanım 1968-ci ildən başlayaraq məqsədyönlü şəkildə görmə orqanının patologiyasını daha dərindən öyrənməyə qərar vermişdi.

Zərifə Əliyevanın elmi yaradıcılığı oftalmologiyanın bir sıra digər sahələrini əhatə etsə də, ömrünün sonuna qədər peşə ilə əlaqədar yaranan göz xəstəlikləri ilə müntəzəm maraqlanmış və məşğul olmuşdu. Bu məqsədlə yod-sənaye, neft-kimya müəssisələrində çalışan insanların görmə orqanlarına təsir edən amilləri dərindən öyrənmişdi. Ən maraqlı və qeyd olunmalı məsələ odur ki, bu problemlər üzərində işləyərkən Zərifə xanım bilavasitə sənaye müəssisələrinin özündə olurdu, zərərli peşə sahiblərini istehsal sahələrində müayinə və müalicə edirdi. Bakı şin və kondisioner zavodlarının, eləcə də paytaxtın və Sumqayıtın digər müəssisələrinin veteran işçiləri həmin günləri yəqin ki, yaxşı xatırlayırlar.

Çoxillik tədqiqatları, gəldiyi nəticələr Zərifə xanımın doktorluq dissertasiyasının əsasını təşkil etmişdi. Belə ki, 1977-ci ildə o, artıq tibb elmləri doktoru elmi dərəcəsini almışdı. Təsadüfi deyil ki, akademik Zərifə Əliyevanın peşə xəstəliklərinə aid yazdığı bir sıra əsərlər, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" və s. monoqrafiyaları bu gün də aktuallığını itirməyib.

Xatırladım ki, doktorluq dissertasiyasını müdafiə etdikdən bir qədər sonra Zərifə xanım Əliyeva Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmişdi, 1983-cü ildən isə həmin kafedranın müdiri vəzifəsində çalışmışdı.

1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya sahəsində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Abervax adına mükafatına layiq görülmüşdü. O, həmin mükafatı alan ilk alim qadın idi.

Zərifə xanım istedadlı oftalmoloq, böyük alim olmaqla yanaşı, çox yüksək etikaya malik, xəstələrini sevən, onlara qayğı, səmimiyyət və nəvazişlə yanaşan mehriban həkim idi. Müayinə və müalicə etdiyi xəstələr onu bu xüsusiyyətlərinə görə də heç vaxt unutmurdular.

O, eləcə də həmkarlarına qayğı ilə yanaşırdı, bildiklərini, təcrübəsini onlardan əsirgəmirdi. Vəzifəsindən asılı olmayaraq tabeliyində işləyənlərin hamısı onun qayğısını hiss edirdilər. Kömək əlini uzatmağa hər an hazır olan humanist, alicənab bir insan idi.

Zərifə xanıma verilmiş ömür payında tale tərəfindən ona böyük və şərəfli missiya da həvalə olunmuşdu. O, dünya şöhrətli siyasətçi, xalqımızın ümummilli lideri Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bu missiyanı da layiqincə yerinə yetirmişdir, həyat yollarında ulu öndərlə birgə addımlamış, onun dostu, silahdaşı, məsləkdaşı, həmdəmi olmuşdur.

Zərifə xanım övladlarını bütün varlığı ilə sevən əsl Azərbaycan qadını idi. Mən deyərdim ki, o, övladlarını fədakarcasına sevirdi. Uşaqlarını Tanrının ona verdiyi əvəzsiz bir pay, bir səadət sanırdı. Onlara qəlbinin odunu bəxş edirdi. Bu münasibətin, bu sevginin, bu tərbiyənin bəhrəsi bu gün göz qabağındadır!

Zərifə xanım həm də vəfalı, sədaqətli dost idi. Anamla gənclik illərindən başlayan dostluğunun sonacan davam etdiyi buna əyani misallardan biridir. Biz atamı tez itirdik. O vaxt anam çox cavan idi, mənim isə on yaşım vardı. Ağır günlərimizdə Zərifə xanım ailəmizin dərdinə şərik oldu. Evimizə gələrək anama təsəlli, ürək-dirək verdi... Onlar bir-birinin fəaliyyətini, elmi yaradıcılığını izləyir, uğurlarına sevinirdilər. Zərifə xanım ailəsi ilə birlikdə Moskvada yaşadığı illərdə də anamla əlaqələri kəsilməmişdi.

Bizim ailə kitabxanamızda oftalmologiya və bu sahənin fədailəri haqqında çoxsaylı kitablar qorunub saxlanmaqdadır. Təbii ki, bunları vərəqləyəndə Zərifə xanımın həm öz əsərlərinə, həm də onun haqqında yazılan xatirələrə də rast gəlirəm. Belə xatirələrin birində Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, dövlət mükafatı laureatı M.M.Krasnov yazır: "Bəlkə də Zərifə xanım çarəsiz xəstəliyə düçar olduğunu bilirdi, amma bunu ətrafdakılara hiss etdirməməyə çalışırdı. 1984-cü ildə tibb işçiləri günü qeyd olunurdu. Zərifə xanım həmin dövrdə dəhşətli xəstəliyi ilə mübarizə aparırdı və onun müalicəsi mümkün olmayan xəstəliyə tutulduğunu az adam bilirdi. Mən Rəyasət Heyətində əyləşmişdim. Birdən onun zalda ən çox sevdiyi bir professor həmkarı ilə (o da istedadlı bir qadın idi) yanaşı oturduğunu gördüm. Hər ikisi deyib-gülür, bir-biri ilə ünsiyyətdən zövq alırdılar. Zərifə xanımda bu güc, həyat eşqi haradan idi?! Ölümünə iki həftə qalmış o uzaq bir ezamiyyətə getməyə hazırlaşırdı. Deyirdi ki, aspirantlarıma kömək etmək lazımdır... Bəlkə də mən bu xatirələri başqa cür yazmalıydım. Bəlkə də bir həmkar kimi peşə, sənət çərçivəsindən kənara çıxmamalı, elm haqqında, işdən, uğurlardan, şagirdlərdən söz salmalıydım. Amma belə alındı. Zərifə xanım qeyri-adi insan idi, başqa istedadlı şəxsiyyətlər kimi o da hər cəhətdən istedadlı idi. Mənim anlamımda isə hər şeydən öncə həyat istedadı və insanilik dayanır. Biz böyük insanı itirdik. Sağlığında da onun yeri görünürdü, ölümündən sonra da!.."

İnsanın özündən sonra yeri görünürsə, deməli, o, unudulmayıb. Unudulmayıbsa, deməli, qoyduğu irs, xeyirxah əməlləri haqqında xoş xatirələr yaşayır.

***Cəmilə SƏTTAROVA,***
***Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, əməkdar mədəniyyət işçisi***

# Müasir suvarma sistemi aqrar sektorun "qan damarı"dır

*Əvvəli 1-ci səh.*

Buna görə də Azərbaycanın cəbhə bölgələri sudan məhrum edilib. Su çatışmazlığı və davamlı olaraq atəşkəsin pozulması səbəbindən cəbhə bölgəsindəki torpaqların böyük hissəsi suvarılmır. Bu da torpaqlarda çatların yaranmasına və onun məhsuldar qatının məhvinə gətirib çıxarır. Mühəndislər və alimlər xəbərdarlıq edirlər ki, bəndlər dağılarsa, 30-dan çox kənd daşqın nəticəsində məhv olacaq. Fəlakət riski hazırda çox yüksəkdir və suyun axın səviyyəsindən aşağıda yerləşən 6 rayonda 400 min Azərbaycan vətəndaşının həyatı təhlükədədir". Bu fikirləri Braziliyada keçirilən 8-ci Dünya Su Forumunda Beynəlxalq Avrasiya Mətbuat Fondunun nümayəndəsi Anastasiya Lavrina bildirib.

Su çatışmazlığı ilə yanaşı, çayların, xüsusilə transsərhəd çayların sularının Ermənistan və Gürcüstan ərazisində çirklənməsi də müəyyən problemlər yaradır. Bu ərazilərdən axan Kür, Araz, Oxçuçay və digərləri yüksək dərəcədə çirklənmiş halda ölkəmizin ərazisinə daxil olur. Mənbəyi Ermənistandan başlayan Oxçuçay hədsiz dərəcədə çirkləndiyinə görə onu "ölü çay" da adlandırırlar.

Azərbaycanda mövcud şərait diqqətdə saxlanılır. Əhalini və əkin sahələrini keyfiyyətli su ilə təmin etmək üçün müvafiq tədbirlər görülür. Son 14 ildə 4 min kilometr uzunluğunda suvarma kanallarının, 2400 kilometr uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidən qurulması və bərpası həyata keçirilib. Bununla yanaşı, 360 min hektar sahədə torpaqların su təminatının və 256 min hektarda meliorativ vəziyyətin yaxşılaşdırılması işləri görülüb. Həmçinin 127 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilib, 2 minə yaxın subartezian quyusu qazılaraq istifadəyə verilib. Ən önəmlisi isə ümumi sututumu 456 milyon kubmetr olan Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə su anbarları tikilib.

Son dövrlər aqrar sektorda əkin sahələri genişləndirilərək yeni bağlar salınıb, pambıq sahələri artırılıb. Sözsüz ki, bu da suya tələbatın artmasına səbəb olur. Bu tələbatı ödəmək üçün ötən il 25 rayonda 6800 kilometr suvarma kanalları və 1500 kilometr kollektor-drenaj şəbəkələri lildən təmizlənib, 463 hidrotexniki qurğu, 22 nasos stansiyası təmir edilib. Su təminatı çətin olan fond torpaqlarında və qış otlaq sahələrində əkilən pambıq tarlalarının suvarılması üçün 1436 kilometr yeni suvarma kanalları çəkilib, 180 hidrotexniki qurğu tikilib. Ümumilikdə ötən il pambıq sahələri 3,1 dəfə suvarma suyu ilə təmin edilib.

Məlum olduğu kimi, ölkədə pambıqçılığın yeni inkişaf dövrü başlanıb. Cari ildə 25 rayonda 140 min hektar sahədə pambıq əkilməsi planlaşdırılıb. Bu sahələrin 38 min hektarı dövlət fondu, 32 min hektar bələdiyyə, 70 min hektarı pay torpaqlarıdır. Artıq pambıq sahələrinə xidmət edən suvarma kanallarının 2200 kilometr, kollektor-drenaj şəbəkələrinin 820 kilometr hissəsi təmir edilib. Görülən işlər cari ildə pambıq sahələrinin su ilə təminatının yaxşılaşdırılmasına imkan verəcək.

Cari ildə kənd təsərrüfatının inkişafına bilavasitə təsir edən infrastruktur layihələrində nəzərdə tutulan meliorativ tədbirlərin həyata keçirilməsi sayəsində pambıqçılıq rayonlarında 62 min hektar sahə, o cümlədən 30 min hektar yeni suvarılacaq torpaqlara suvarma suyu veriləcək, 32 min hektar əkin sahəsinin su təminatı yaxşılaşdırılacaq. Bu da pambıqçılığın inkişafına və məhsul istehsalına öz töhfəsini verəcək.

Meliorativ tədbirlər həyata keçirilərkən iki mühüm amilə diqqət yetirilir. Bunlar əkin sahələrinin suvarılması və əhalinin içməli suya olan tələbatının ödənilməsidir. Təkcə cari ildə dövlət tərəfindən ayrılan vəsait hesabına 38 şəhər və rayonun 248 yaşayış məntəqəsində 300 subartezian quyusu qazılaraq istifadəyə veriləcək. Yeni subartezian quyularının qazılması isə həm iqtisadi, həm də sosial layihədir.

Suvarma sistemi aqrar sektorun "qan damarı"dır. Su ilə təminat olmadan kənd təsərrüfatında yüksək məhsuldarlığa nail olmaq mümkün deyil. Qeyd etdiyimiz kimi, ölkəmizin təbii su ehtiyatları azdır. Buna baxmayaraq, dövlət tərəfindən həyata keçirilən müvafiq tədbirlər nəticəsində istər əkin sahələrinin, istərsə də əhalinin içməli suya olan tələbatının ödənilməsi ildən-ilə yaxşılaşır. Qarşıdakı illərdə bu sahədə daha böyük işlər görüləcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Pambıqçılığın inkişafı çoxsaylı iş yerlərinin açılmasına imkan verir

*Əvvəli 1-ci səh.*

İstehsal edilmiş məhsula görə fermerlərə 11,2 milyon manat vəsait ödənilib. İstehsalçılara əlavə olaraq son məhsula görə 2,3 milyon manat subsidiya veriləcək.

Tərtər rayonunda ötən il pambığın əkini, becərilməsi və yığımı işlərinə 5 min nəfərədək insan cəlb olunub. Fermer Habil İbrahimov 118 ton məhsul istehsal edərək 67 min manat, Qasım Sadıqov 104 ton məhsul toplayaraq 50 min manat, Mürsəl Babışov 91 ton məhsul tədarük edərək 45 min manat, Fazil Vəliyev 57 ton məhsula görə 28 min manat gəlir əldə ediblər. Tərtərli fermerlər 800 min manat subsidiya alacaqlar.

Beləliklə, Azərbaycanda pambıqçılıq sahəsi ardıcıl inkişaf yolundadır və burada getdikcə daha önəmli addımlar atılır.

Ölkədə pambıqçılığın inkişafını təmin etmək məqsədilə 2017-ci il mövsümündə "Azərpambıq" Məhdud Məsuliyyətli Cəmiyyəti respublikanın 14 rayonunda 2523 fermerlə bağlanmış müqavilələr üzrə 28,6 hektarda pambıq əkilmişdi.

Bu il "MKT İstehsalat Kommersiya" MMC 8700 fermerlə 40 min 500 hektar sahədə əkin üçün müqavilə bağlayıb və bu proses davam edir.

Bütün bunlar ildən-ilə daha çox kənd sakininin öz məşğulluq problemini həll etməsi deməkdir. Lakin bu sahədə işlə təmin olunan təkcə tarla əməkçiləri deyil.

Pambığın çoxpilləli emalı üçün yaradılan müəssisələrdə də yüzlərlə insan iş yeri əldə edir. Məsələn, Mingəçevir Yüngül Sənaye Parkında iki yeni müəssisə fəaliyyətə başlayıb. Burada ildə 20 min ton iplik istehsal olunur və yüzlərlə əməkçi çalışır.

"Azərpambıq" MMC "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin tərkibində olan toxuculuq müəssisələri ilə tərəfdaşlıq əsasında işləyəcək. Bu istiqamətdə Sumqayıtdakı "ASK Tekstil" və "Şəki İpək" müəssisələri ilə birgə işə başlanıb. Emaldan alınan mahlıc bu müəssisələrə veriləcək. Orada mahlıcdan iplik istehsal ediləcək. Bu da öz növbəsində həmin müəssisələrdə yeni iş yerlərinin açılmasına səbəb olacaq.

Göründüyü kimi, pambıqçılığın əhalinin işlə təmin olunmasına böyük dəstəyi var. Bu il də ən azı keçən ildəki sayda insan işlərə cəlb olunacaq. Rayonlarda əmək resurslarını müəyyənləşdirmək üçün icra orqanları qüvvələrini səfərbər edəcəklər. Üstəlik, pambıqçıların lazımi səviyyədə hər cür şəraitlə - tarla düşərgələri, içməli su, nəqliyyatla təmin olunması və s. qarşıya vacib məsələ kimi qoyulur.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Yeni Azərbaycan Partiyası seçkilərə qeyri-obyektiv qiymət verilməsini qətiyyətlə pisləyir

Yeni Azərbaycan Partiyası (YAP) aprelin 11-də Azərbaycanda keçirilmiş prezident seçkiləri barədə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, ATƏT Parlament Assambleyasının və Avropa Şurası Parlament Assambleyasının ilkin hesabatı ilə əlaqədar açıqlama yayıb. Bu barədə AZƏRTAC-a YAP-ın mətbuat xidmətindən məlumat verilib.

Açıqlamada deyilir: “2018-ci il aprel ayının 11-də Azərbaycan Respublikası Prezidentinin seçkiləri keçirilib. Prezidentliyə 8 namizədin iştirakı ilə keçirilən seçkilərin müxtəlif mərhələsi və səsvermənin gedişi 60 minə yaxın yerli və 894 beynəlxalq müşahidəçi tərəfindən izlənilib. 59 ölkəni, 61 beynəlxalq təşkilatı əhatə edən beynəlxalq müşahidəçilərin mütləq əksəriyyətinin yüksək qiymətləndirdiyi seçkilər haqqında ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, ATƏT Parlament Assambleyasının və Avropa Şurası Parlament Assambleyasının kəskin fərqlənən ilkin hesabatla çıxış etməsi təəccüb doğurur. İlkin yaranan təəssürat bundan ibarətdir ki, sanki yuxarıda qeyd olunan təşkilatlar Azərbaycandakı seçki deyil, hansısa başqa bir seçki barədə hesabat hazırlayıblar. Hesabatın qeyri-obyektivliyinə, qərəzli olmasına, faktlara, reallığa məhəl qoyulmamasına heç nə ilə haqq qazandırmaq mümkün deyil. Belə bir vəziyyət hesabatda əks olunan əsassız, qüsurlu və birbaşa qərəzli iddialarla əlaqədar hər hansı diskussiyaya yer qoymur.

Seçkilərdə 86,03 faiz səs çoxluğu ilə qalib gəlmiş fəaliyyətdə olan Prezident İlham Əliyevin namizədliyini irəli sürən Yeni Azərbaycan Partiyası olaraq biz ATƏT DTİHB, ATƏT PA və AŞ PA müşahidə missiyası tərəfindən hazırlanmış ilkin hesabatı qeyri-obyektiv və qərəzli hesab edirik, azad, şəffaf və düzgün şəraitdə keçirilən seçkilərə bu cür qiymət verilməsini qətiyyətlə pisləyirik.

Hər bir seçkinin demokratikliyi, obyektiv və şəffaf olması onun əhalinin siyasi iradəsini ifadə etməsi dərəcəsi ilə ölçülür. Digər tərəfdən, seçkilərə ən həssas və doğru qiyməti onun əsas iştirakçıları - namizədlər verə bilər. Seçki prosesinə qoşulan və qalib gələ bilməyən namizədlərin hər biri qalib gələn namizədi təbrik etməklə seçki prosesinin obyektivliyini etiraf edib. Xalqın və seçkilərə qoşulan namizədlərin obyektivliyini və şəffaflığını yekdil şəkildə etiraf etdiyi seçkilərin guya hansısa pozuntularla müşayiət olunduğunu iddia etmək qeyri-ciddiliyin və açıq qərəzliliyin aydın təzahüründən başqa bir şey deyil.

Yeni Azərbaycan Partiyası ATƏT DTİHB, ATƏT PA və AŞ PA müşahidə missiyasının elan etdiyi ilkin hesabatda əksini tapmış qeyri-obyektiv və qərəzli iddiaları, o cümlədən Yeni Azərbaycan Partiyasının təşkil etdiyi təşviqat kampaniyalarında administrativ resurslardan istifadə olunması, insanların zorla mitinqlərə gətirilməsi barədə həqiqətlə heç bir əlaqəsi olmayan müddəaları qətiyyətlə rədd edir və missiyanın yekun hesabatda açıq-aşkar qeyri-obyektivliyi və faktlara etinasızlığı aradan qaldıracağına, Azərbaycan seçicilərinin iradəsinə hörmətlə yanaşacağına ümidvar olduğunu bəyan edir”.

# Yenə böhtan, növbəti siyasi sifariş

## ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidə missiyası Azərbaycan xalqının iradəsinə və seçiminə hörmətsizlik etdi

Yenə qərəz, yenə ikili standartlara əsaslanan mövqe... İllərdir bütün beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərini, ikitərəfli əlaqələrini daha da möhkəmlətmək, şaxələndirmək istəyən müstəqil Azərbaycan yenə də qərəzlə, böhtanla üzləşir. Yəni bəzi beynəlxalq təşkilatların ölkəmizə qarşı münasibəti dəyişmir ki, dəyişmir.

Aprelin 11-də keçirilən prezident seçkilərində də bu, bir daha təsdiqini tapdı. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB), ATƏT PA-nın və Avropa Şurasının Parlament Assambleyasının (AŞ PA) müşahidə missiyasının ilkin hesabatı Azərbaycana qarşı yürüdülən ikili standartlar prinsipinin tərkib hissəsi idi.

ATƏT DTİHB-nin prezident seçkilərindəki müşahidə missiyasının gördüyü işlər və bir gün sonra açıqladığı ilkin rəy də bundan öncəkilərdən fərqlənmədi. Açıq-aşkar bəlli oldu ki, bu təşkilatın müşahidə missiyası Azərbaycana seçkiləri izləməyə deyil, siyasi sifarişlə, düşünülmüş şəkildə ölkəyə qara yaxmağa gəlib.

Hətta bu, onların ilk yanaşmalarında da hiss olunurdu. Hələ seçkilərdən öncə açıqladıqları aralıq hesabatda seçki komissiyalarının tərkibinin parlamentdəki siyasi qüvvələrin sayına əsasən təşkil olunduğunu, məntəqə seçki komissiyalarına yaxşı treninqlərin keçirildiyini, səsvermə hüququna malik insanların qeydiyyatının tam aparıldığını qeyd etsələr də, müxalifətə seçkilərə qatılmaq imkanı verilmədiyi iddia edilirdi. Onların iddiasına görə, guya namizədlər arasında fərq qoyulub, hər kəsin namizədliyini irəli sürməsinə imkan verilməyib. Ancaq bu tamamilə yanlış fikirdir. Çünki əslində, seçkidə iştirak üçün hər kəsə bərabər şərait yaradılmışdı. Xalq arasında olan-qalan nüfuzunu da itirən, heç bir sosial bazaya malik olmayan dağıdıcı müxalifətin seçkiyə qatılmamasının səbəbləri isə hər kəsə yaxşı bəllidir. Seçkidə məğlub olacaqlarını bilən bu qüvvələr əvvəlcədən özlərini sığortalayaraq iştirak etməmək qərarını verdilər. Bu, onların köhnə peşəsidir. İcazəli mitinqə min nəfəri zorla toplayanlar yaxşı bilirdilər ki, seçkidə toplayacaqları səslər heç iki faiz civarında da olmayacaq.

ATƏT DTİHB-nin hesabatındakı qərəzliliyi təsdiqləyən digər məqama nəzər yetirək. Qeyd edilir ki, seçkidə iştirak edən namizədlərə təzyiqlər olub. Maraqlıdır ki, seçkilərə qatılan namizədlərdən heç birinə təzyiq olmayıb. Əgər olsaydı, mütləq MSK-ya müraciət edilərdi. Yaxud, bununla bağlı hansısa mətbu orqanda informasiya yayılardı. Demək, bu məlumatlar da kökündən yanlışdır və açıq-aydın bəlli olur ki, əslində, qurumun bəyanatı seçkidən sonra, müşahidələr əsasında deyil, əvvəlcədən sifarişlə hazırlanıb. Yəni yenə də köhnə ssenariləri davam etdiriblər.

Tamamilə aydın olur ki, ATƏT DTİHB-nin müşahidə missiyası seçkini izləmək məqsədilə deyil, sırf qərəz, şantaj və böhtan xarakterli mövqe ilə gəlmişdilər. Onlar antiazərbaycançı şəbəkənin sifarişi ilə ölkəyə gəlib öz çirkin niyyətlərini həyata keçirməyə çalışıblar. Lakin buna nail ola bilmədilər.

Əlbəttə ki, əvvəlcədən hazırlanmış hesabatı ilkin nəticələr kimi yaymaq xalqımızın iradəsinə və seçiminə hörmətsizlikdir. Necə olur ki, seçkilərdə müşahidə aparan Avropa İttifaqı Regional Komitəsi, Türk PA, MDB, Azadlıq və Demokratiya Fondunun müşahidə missiyaları, Avropa parlamentində Avropa Mühafizəkarlar və Reformistlər qrupunun (ECR) üzvlərindən ibarət missiya və digərləri, eləcə də müxtəlif ölkələrin parlamentariləri bəyanat verərək Azərbaycanda seçicilərin sərbəst və gizli səsvermə hüquqlarının təmin edildiyini, səslərin sayılmasının düzgün və şəffaf şəkildə aparıldığını ümumilikdə seçkinin demokratik, şəffaf keçirildiyini bəyan edirlər. Məsələn, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun seçkilərlə bağlı bəyanatında qeyd olunub: “Siyasi cəhətdən çoxşaxəli və rəqabətli mühit təmin olunmuşdu. Ümumi mühit sakit, proses beynəlxalq standartlara uyğun idi. Seçicilərin azadlığı, sərbəstliyi, səsvermənin gizliliyi tam təmin edilmişdi. Müşahidəçilər tərəfindən heç bir insident qeydə alınmadı. Biz səsvermə günü Seçki Məcəlləsinin pozulması faktına rast gəlmədik. Kənar müdaxilələr və seçicilərə hər hansı təzyiq hallarının şahidi olmadıq”.

Digər təşkilatlar da bəyan etdilər ki, seçkilər, səsvermə prosesi azad və şəffaf, Azərbaycan seçicilərinin yüksək fəallığı ilə baş tutub. Azərbaycan vətəndaşları heç bir maneə olmadan, azad və sərbəst şəkildə seçki məntəqələrinə gedərək öz iradələrini ifadə ediblər.

Həqiqətən də Azərbaycan xalqı bu seçkilərdəki mütəşəkkilliyi ilə özünün siyasi iradəsini bütün dünyaya bir daha çatdırmış oldu. 11 aprel seçkiləri həm də, Azərbaycanda demokratiyanın növbəti təntənəsi oldu.

Ancaq ATƏT DTİHB-nin müşahidə missiyası başqa fikir söyləyir. Bu qurumun müşahidəçilərinin digər çoxsaylı müşahidəçilərin və təşkilatların ziddinə getməyində məqsədi nədir?

Bütün bunlar bir daha onu deməyə əsas verir ki, ATƏT DTİHB hər zaman olduğu kimi, yenə də Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirir. Hətta bu qurumun müşahidə missiyasının böyük hissəsi seçki haqqında müsbət fikirdədir. Bəs, onda nədən qurum qərəzli mövqe nümayiş etdirir?

Çünki bu qurum geopolitik alət rolunu oynayır. Bu təşkilat məqsədyönlü şəkildə məlum beynəlxalq dairələrə xidmət göstərir və müəyyən milli dövlətlərə qarşı həqiqətdən uzaq bəyanatlar yayır. Lakin bu bəyanatlar həmin təşkilatın özü üçündür, cəmiyyətimiz üçün heç bir önəm kəsb etmir. Əsas xalqın iradəsidir ki, bu da oldu və Azərbaycan xalqı prezident seçkilərində cənab İlham Əliyevə yüksək etimad göstərdi.

Mərkəzi Seçki Komissiyasının adıçəkilən təşkilatların müşahidə missiyasının hesabatına dair bəyanatında da söylənilən məsələlər bir daha öz əksini tapıb. Sənəddə qeyd edilir ki, xarici müşahidəçilərin təqribən 40 faizini təşkil edən adıçəkilən qurumların 360 müşahidəçisi (onlardan 270-i ATƏT DTİHB-nin müşahidəçiləri olmaqla) bu seçkilərdə ənənəvi olaraq yeganə təkzibolunmaz və son hakim funksiyasını təkbaşına mənimsəyib. Sözügedən müşahidə missiyasının hesabatında “ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, ATƏT-in Parlament Assambleyasının və Avropa Şurasının Parlament Assambleyasının müşahidəçiləri” terminindən yox, birbaşa “beynəlxalq müşahidəçilər” terminindən istifadə edilir ki, bu da 59 ölkəni və çoxsaylı beynəlxalq təşkilatları təmsil edən xarici müşahidəçilərə ən azı hörmətsizliyin və təkəbbürlüyün aşkar sübutudur.

MSK adıçəkilən sübutsuz, ziddiyyətlərlə dolu qərəzli hesabatın tam təhlilini məqsəd kimi qoymur və ümid edir ki, Azərbaycanda keçirilmiş prezident seçkiləri ilə bağlı bu qurumların müşahidə missiyasının yekun hesabatında çoxsaylı uyğunsuzluqlar aradan qaldırılacaq. Əks halda, Mərkəzi Seçki Komissiyası böyük təəssüf hissi ilə nümayəndələri sözügedən missiyanın tam əksəriyyətini təşkil edən ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ilə əməkdaşlığın dayandırılması məcburiyyəti qarşısında qalacaq.

Bəlli olan odur ki, Azərbaycan müstəqillik tarixində daim bu cür qərəzli münasibətlərlə rastlaşıb, ancaq demokratiya və müstəqillik yolundan dönməyib. ATƏT-in müşahidə missiyasının bu cür hesabatları ölkəmizin daxili və xarici siyasi kursuna, eyni zamanda dünyada artan nüfuzuna hansısa formada təsir edə bilməz. Antiazərbaycançı şəbəkənin istənilən məkrli planı, çirkin kampaniyası hər zaman iflasa uğrayıb.

Şübhəsiz ki, qarşıdakı 7 il ərzində də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da irəliləyəcək, inkişaf edəcək, qüdrətlənərək beynəlxalq müstəvidə öz mövqeyini gücləndirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# “The Jerusalem Post”: “Azərbaycan seçicilərinin 86 faizi İlham Əliyevə səs verib”

Aprelin 11-də Azərbaycanda keçirilmiş prezident seçkilərinin ilkin yekunları açıqlanıb. 3675 seçki məntəqəsi üzrə hesablamalara görə, Azərbaycan dövlətinin indiki başçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev seçkilərdə səslərin 86,03 faizini toplayıb. Bunu Azərbaycan Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezident seçkilərinin yekunlarına həsr olunmuş bəyanatda bildirib.

AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut bu barədə İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc olunmuş “Azərbaycan seçicilərinin 86 faizi prezident seçkilərində İlham Əliyevə səs verib” sərlövhəli məqaləsində yazıb.

A.Qut qeyd edir ki, Azərbaycanda 5 314 365 adamın səs vermək hüququ var, onların 50,78 faizi qadınlar, 49,22 faizi kişilərdir. Səsvermə günü ölkə ərazisindəki 125 seçki dairəsində 5426 daimi və 215 müvəqqəti seçki məntəqəsi fəaliyyət göstərib. 119 seçki dairəsindəki 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Gün ərzində səsvermə prosesini Mərkəzi Seçki Komissiyasının saytında online izləmək mümkün idi. Seçkilərdə 894 beynəlxalq və 58175 yerli müşahidəçi iştirak edirdi.

Arye Qut yazır: “Mən Azərbaycanda keçirilən prezident seçkilərində beynəlxalq müşahidəçi kimi ilk dəfə iştirak edirdim. Əminəm ki, bu seçkilər yeni islahatların və yeni nailiyyətlərin başlanğıcı və hərəkətverici qüvvəsi olacaq. Aprelin 11-də prezident seçkiləri beynəlxalq norma və qaydaların tələblərinə müvafiq şəkildə, yüksək səviyyədə keçdi. Hesab edirəm ki, seçkilərdə hansı namizədin dövlət başçısı vəzifəsinə daha çox uyğun gəldiyini yaxşı bilən Azərbaycan xalqının iradəsi nümayiş etdirildi. Azərbaycanda prezident seçkiləri açıq və şəffaf keçdi. Nümayəndə heyətimiz prezident seçkiləri prosesini müşahidə etmək üçün İsraildən Azərbaycana səfər etmişdi. Nümayəndə heyətində İsrail Knessetinin sabiq deputatları, keçmiş nazirlər və İsrail Milli Təhlükəsizlik Şurasının sabiq başçısı təmsil olunmuşdular”.

Bu seçkilərin yaxın gələcəkdə Azərbaycanın demokratikləşməsi yolunda daha bir addım olacağını vurğulayan məqalə müəllifi yazır: “İlham Əliyevin milli maraqlar üzərində qurulan müstəqil siyasəti Azərbaycanın xarici siyasətinin təməl daşıdır. İlham Əliyevin xarici siyasət strategiyası ilk növbədə hərtərəfli ölçülüb-biçilmiş diplomatiyaya və tarazlı xarici siyasətə söykənir. Müstəqil xarici siyasət ilk növbədə bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmaq səylərinə əsaslanır.

Azərbaycan heç bir hərbi-siyasi blokla bağlı deyildir, diqqətini regionun bütün ölkələri ilə səmərəli əməkdaşlıq üzərində cəmləşdirib. Azərbaycan təzyiq dili ilə danışmağı qəbul etmir, xarici tərəfdaşlarla əməkdaşlığını sırf qarşılıqlı əsasda qurur. İlham Əliyevin tarazlı və çoxvektorlu diplomatiyası sayəsində bu gün Azərbaycan beynəlxalq aləmdə söz sahibidir. O, Cənubi Qafqaz regionunun coğrafi baxımdan ən mühüm, iqtisadi və müdafiə baxımından ən güclü ölkəsidir. Belə bir fakt da şəksizdir ki, İlham Əliyevin xarici siyasəti çox aydındır və gözləniləndir”.

Məqalə müəllifi daha sonra yazır: “Bu günün faktiki reallığı budur ki, Avrasiyanın heç bir ölkəsinin İsrail ilə Azərbaycan qədər sıx əlaqələri yoxdur. Yəhudi dövləti ilə əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən dövlət arasında strateji münasibətlərin zəruriliyi və həyat qabiliyyəti iki dövlət arasında diplomatik münasibətlərin 25 illik tarixi ərzində sübuta yetirilib. Faktiki olaraq azərbaycanlılarla yəhudilər nəinki dinc yanaşı yaşayır, həm də əsl dostluq münasibətlərini inkişaf etdirməyi və möhkəmləndirməyi bacarırlar.

Mən bir İsrail vətəndaşı kimi, fəxrlə deyə bilərəm ki, Azərbaycan rəhbərliyi müasir Azərbaycan cəmiyyətinin ayrılmaz tərkib hissəsi olan yəhudi icmasına böyük hörmətlə və diqqətlə yanaşır. İki sinaqoq və Cənubi Qafqazda ən böyük yəhudi təhsil mərkəzi inşa edilib. Azərbaycanda yəhudi muzeyi yaradılması planlaşdırılır. Bu, Cənubi Qafqazda ilk yəhudi muzeyi olacaq”.

İsrailli ekspertin fikrincə, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmaması Azərbaycanın xarici siyasəti üçün ən böyük təhdidlərdən biridir. O yazır: “Azərbaycan və Ermənistan 25 ildən çoxdur ki, nə hərb, nə də sülh şəraitində yaşayır. 1994-cü ildə atəşkəs rejimi elan edilib. Beynəlxalq birliyin müxtəlif səylərinə baxmayaraq, ölkələr hələ də münaqişənin sülh yolu ilə həllinə nail olmayıblar. Doğrudur, indi danışıqlar prosesi daha fəal, daha perspektivlidir və artıq müəyyən nəticələr var. Amma bu, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən həll yolunu tapmaq üçün yetərli deyildir. Bu münaqişə yalnız beynəlxalq hüquq, habelə beynəlxalq təşkilatların qərarları əsasında həll edilə bilər”.

Ekspert qeyd edir ki, əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən enerji siyasəti Azərbaycanın siyasi maraqlarının dəstəklənməsinə yönəldilib. A.Qut vurğulayır: “Bu strategiya müxtəlif regional və qlobal layihələrdə Azərbaycanın aparıcı rol oynamasını təmin edib. Bu gün Azərbaycan enerji siyasəti sahəsində etibarlı tərəfdaşdır. O, Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Qeyd edilməlidir ki, İsrail Dövləti dünya bazarında Azərbaycan neftinin əsas alıcılarından biridir. Azərbaycanın isə kənd təsərrüfatı, hərbi sənaye, telekommunikasiyalar sahəsində İsrailin yüksək texnologiyalarına ehtiyacı var və bu siyahını davam etdirmək olar. İsraildə istehlak olunan neftin xeyli hissəsi (təqribən 65 faizi) Azərbaycandan, yaxud Azərbaycandan keçməklə Bakı-Tbilisi-Ceyhan (BTC) magistral neft kəməri vasitəsilə idxal olunur”.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da mühüm rol oynadığını diqqətə çatdıran müəllif yazır: “Azərbaycan təkcə regionun mühüm enerji və nəqliyyat qovşağı deyildir, həm də Avropaya Rusiyanın, OPEC-in və İranın olmayan alternativ enerji təklif edən iri neft-qaz hasilatçısıdır. Azərbaycanın Bakı-Tbilisi-Ceyhan boru kəməri Xəzər dənizindən çıxarılan nefti Gürcüstan və Aralıq dənizi vasitəsilə Türkiyənin Ceyhan limanına nəql edir”.

Sonda israilli ekspert fikrini seçkilər başa çatandan sonra Prezident İlham Əliyevin xalqa müraciətindən sitat gətirdiyi bu sözlərlə tamamlayıb: “Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq. Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!”

# Azərbaycanda keçirilmiş prezident seçkiləri İordaniya mətbuatında geniş işıqlandırılıb

Aprelin 11-də Azərbaycanda keçirilmiş prezident seçkiləri İordaniyanın Dövlət Televiziyası, “Petra” Dövlət Xəbərlər Agentliyi, “Əd-Dustur”, “Əl-Ray”, “Əl-Ğadd”, “Ammannyus” qəzetləri və “Ammun” agentliyi tərəfindən geniş işıqlandırılıb.

Azərbaycanın İordaniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, “Petra” agentliyi tərəfindən yayılmış məqalə “Azərbaycanlılar Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin növbəti dəfə prezident seçilməsini bayram edirlər” adlanır. Agentliyin seçkiləri müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan müxbiri Məşhur əş-Şəxanbeh İlham Əliyevin seçicilərin 86,03 faiz səsini əldə edərək növbəti dəfə Prezident seçildiyini bildirir. Seçkilərin şəffaf və demokratik şəraitdə keçirildiyi, Azərbaycan xalqının ölkənin xoşbəxt gələcəyinə səs verdiyi, Prezident İlham Əliyevin apardığı islahatlardan və yürütdüyü uğurlu daxili və xarici siyasətdən Azərbaycan xalqının tam razı qaldığı vurğulanır.

Müəllif yazır ki, İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan hazırda tam təhlükəsizlik şəraitində yaşayır, həyatın müxtəlif sahələrində mühüm nailiyyətlər əldə edib və regionun qabaqcıl ölkəsinə çevrilib.

Ölkəmizin seçkilər tarixində ilk dəfə olaraq səsvermədə seçicilərin 75 faizinin iştirak etdiyi, seçkilərin çoxlu sayda regional və beynəlxalq təşkilat və KİV nümayəndələri tərəfindən izlənildiyi, tam demokratik və şəffaflıq şəraitində keçirildiyi diqqətə çatdırılır. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova istinadla qeyd olunur ki, əvvəlki seçkilərə nisbətən builki seçkilərdə seçicilərin sayı 10 faiz artıq olub, müşahidəçilər üçün bütün lazımi şərait yaradılıb.

İordaniya Kralı II Abdullahın Prezident İlham Əliyevə qələbə münasibətilə ünvanladığı təbrik məktubuna İordaniya mətbuatında geniş yer verilir. Məktubda bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25 illik yubileyinin qeyd olunduğunu bildirən Kral İordaniya xalqı və hökuməti adından ən səmimi təbriklərini və arzularını çatdırır.

Məqalələrdə seçkilərdə hər hansı qanun pozuntularının qeydə alınmadığı və şikayətlərin olmadığı bildirilir.

# Azərbaycanlı tələbələr sabiq erməni diplomatının yalanlarını ifşa etdilər

Ermənistan Respublikasının sabiq xarici işlər naziri Vardan Oskanyan Ermənistan Milli Tədqiqatlar Assosiasiyasının dəstəyi ilə Harvard Universitetində təşkil olunan tədbirdə bir qrup tələbənin qarşısında çıxış edib.

AZƏRTAC xəbər verir ki, sabiq diplomatın çıxışının mövzusu “Beynəlxalq hüquq üzrə öz müqəddəratını təyinetmə. İki münaqişə haqqında: Kosovo və Dağlıq Qarabağ” olub. Oskanyan öz məruzəsində Kosovo və Dağlıq Qarabağ üzrə dəlillər gətirməklə Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ regionunun işğalına xalqın öz müqəddəratını təyinetmə hüququ kimi bəraət qazandırmağa çalışıb, məhz “nicat sesessiya” (remedial secession) nəzəriyyəsinə, beynəlxalq hüquqa özünün selektiv interpretasiyası ilə istinad edib. Erməni millətçilərinin otuz illik cəfəngiyyatını təkrarlayan Oskanyan unudub ki, “nicat sesessiya”sı deyəndə bir qrup insana qarşı müəyyən ədalətsizlik və təzyiq göstərilərkən həmin qrupun ümumi hüququ başa düşülür və bu zaman vəziyyətin düzəldilməsi üçün sesessiya son qərar olur. Əgər ermənilər keçmiş DQMV-də muxtar vilayətin tarixi boyu bütün siyasi hüquq və özünüidarədən tam yararlanıblarsa və Azərbaycanın digər hissəsinə nisbətən iqtisadi üstünlüyə malik olublarsa, hansı sesessiyadan söhbət gedə bilər?

Oskanyan hazırkı separatçı hərəkatlara, o cümlədən kürd və Kataloniya referendumlarına toxunaraq onları legitim adlandırıb. Kosovo təcrübəsinə istinad edərək, həmçinin bildirib ki, Ermənistan və oyuncaq “DQR” (Yerevanın işğal etdiyi ərazilərdə yaradılmış marionet rejimi) BMT Beynəlxalq Məhkəməsinə öz işini təqdim etmək və müdafiə etmək baxımından sanballı arqumentlərə və qalib gəlmək üçün real şanslara malikdir. Oskanyan öz çıxışında Dağlıq Qarabağın Azərbaycana qaytarılmasının mümkün olmadığını dəfələrlə bəyan etdi.



Erməni diplomatı tədbirdə iştirak edən iki azərbaycanlı tələbənin - Harvard Universitetindən Həbib Abdullayevin və Massaçusets Texnologiya İnstitutundan Samir Qurbanovun suallarına cavab verə bilməyib.

Suallardan biri bu mövzuda olub: Oskanyanın xarici işlər naziri olduğu dövrdə Ermənistanın sabiq prezidenti Koçaryan işğal edilmiş Dağlıq Qarabağın Ermənistana birləşdirilməsində daim israr edirdi, separatçıların indiki lideri Bako Saakyan da aşkar şəkildə bildirib ki, Qarabağ “sonda Ermənistana birləşdiriləcək”. Bundan başqa, Ermənistan parlamenti hələ 1989-cu ildə Azərbaycanın Dağlıq Qarabağ regionunun ilhaqı barədə qeyri-qanuni və konstitusiyaya zidd qərar qəbul etmiş və sonra bu maddə hətta Ermənistan Respublikasının Konstitusiyasına daxil edilmişdi. Bundan başqa, İnsan hüquqları üzrə Avropa Məhkəməsi “Çıraqov və digərlərinin Ermənistana qarşı” işində müəyyən etmişdi ki, məhz “Ermənistan Dağlıq Qarabağa həlledici təsir göstərir və onun üzərində effektiv nəzarəti həyata keçirir”. “Yuxarıdakı faktlar və məhkəmənin qərarı nəzərə alınarsa, Ermənistan qüvvələri Qarabağa nəzarət edirlərsə və qonşu suveren dövlətin ərazisinin bilavasitə ilhaqına cəhd varsa, hansı “öz müqəddəratını təyinetmədən” söhbət gedə bilər?”, - deyə azərbaycanlı tələbə soruşub.

Tələbələrin, həmçinin keçmiş DQMV-dən kənardakı rayonların işğalı ilə bağlı sualı sabiq diplomatı çaşdırıb. Ondan bu məsələni də izah etməsini xahiş ediblər ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi olduğu halda, keçmiş DQMV-yə bitişik 7 rayonun işğalına və ondan danışıqlar aparılmasının subyekti qismində istifadə edilməsinə beynəlxalq hüquqa müvafiq olaraq necə haqq qazandırıla bilər? Tələbələrimizin sadaladıqları faktları qulaqardına vuran Oskanyan yalnız İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin “Çıraqov və digərlərinin Ermənistana qarşı” işinə toxunub və onu “hüquqi öhdəliklər daşımayan qərar” adlandırıb.

# Bakı Şəhər Baş Polis İdarəsi paytaxtda keçirilən mitinqlə bağlı məlumat yayıb

Bakı Şəhər Baş Polis İdarəsi aprelin 14-də paytaxtda keçirilən razılaşdırılmış mitinqlə bağlı məlumat yayıb.

İdarədən AZƏRTAC-a bildiriblər ki, aprelin 14-də özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran quruma daxil olan partiya və birliklərin Yasamal rayonundakı idman-sağlamlıq kompleksinin stadionunda Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış mitinqi keçirilib.

Saat 15.00-dan 17.00-dək davam edən toplantıda Azərbaycan Xalq Cəbhəsi, Müsavat və Azərbaycan Xalq partiyalarının, Müsəlman Birliyi, “NİDA” hərəkatlarının, eləcə də müxalifətyönümlü bir sıra qeyri-hökumət və gənclər təşkilatlarının ümumilikdə minədək üzvü və təəssübkeşi iştirak edib.

Mitinq zamanı ictimai asayişin və hüquq qaydasının kobud şəkildə pozulması halları qeydə alınmayıb.

# “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət Leyla Əliyevanın iştirakı ilə sakinlərin istifadəsinə verilib







IDEA İctimai Birliyinin təşkilatçılığı və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət aprelin 14-də sakinlərin istifadəsinə verilib. Yenilənmiş növbəti həyət Qaradağ rayonunun Lökbatan qəsəbəsi, İntiqam Nəbiyev küçəsində, 4 mindən çox sakinin yaşadığı məhəllədə yerləşir.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

“Bizim həyət” layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Qaradağ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan və 2 hektar sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə əyləncə qurğuları yerləşdirilib, futbol meydançası və idman alətlərindən ibarət kiçik meydança salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır. Həyətdə, həmçinin heyvanların gəzdirilməsi üçün xüsusi meydança salınıb.





Sakinlərin istək və maraqları nəzərə alınaraq çoxmənzilli binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 500-ə yaxın ağac və kol əkilib.

Qeyd edək ki, “Bizim həyət” layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə start verilib. Lökbatan qəsəbəsində sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan üçüncü həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# İkiotaqlı mənzildəki CAVİD ömrü

***Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur Yer üzünü.***

*Ədəbiyyatla maraqlanmayanlar belə onu bu misra ilə tanıyırlar. Onun zəngin yaradıcılığı, nakam taleyi həmişə böyük marağa səbəb olub. Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifi olan Hüseyn Cavid milli şüurun oyanmasında mühüm rol oynayıb. Onu əbəs yerə Azərbaycan ədəbiyyatının Şekspiri adlandırmayıblar.*

## Yaşadığı mənzil ölümündən 61 il sonra muzeyə çevrilib

1882-ci ildə Naxçıvan şəhərində Molla Abdullanın ailəsində dünyaya göz açan Hüseyn Cavid 33 yaşında Bakıya köçüb. 1937-ci il iyunun 4-nə kimi, yəni həbs olunan günə qədər ailəsi ilə birgə paytaxtda ikiotaqlı kiçik mənzildə yaşayıb-yaradan ədib burada cəmi 17 il ömür sürüb. Bəlkə də dahi şair yaradıcılığının ən gözəl dövrünü, ömrünün ən xoş çağlarını keçirdiyi bu mənzilin nə zamansa ev-muzeyinə çevriləcəyini düşünməyib. Ölümündən sonra Bakıda və Naxçıvan Muxtar Respublikasında şairin xatirə muzeyləri yaradılıb. Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə Naxçıvanda onun qəbri üstündə möhtəşəm məqbərə ucaldılıb.

Heydər Əliyevin şəxsi göstərişi ilə şairin ölümündən 61 il sonra, 24 oktyabr 2002-ci ildə yaşadığı ikiotaqlı mənzil onun ev-muzeyinə çevrilib. Şairin 120 illik yubileyinə təsadüf edən bu mərasimdə ulu öndər şəxsən iştirak edib, muzey ekspozisiyası ilə tanış olub, rəy kitabına ürək sözlərini yazıb. Bundan sonra muzeyin ekspozisiyası geniş tamaşaçı auditoriyasının ixtiyarına verilib. Biz də bir gün o tamaşaçılardan biri olduq.























## 13 minə qədər eksponat

Muzeyin kandarında sanki Cavid dünyasına qatılırsan... Muzeyin elmi-ekspozisiya şöbəsinin müdiri Lalə Əliyeva öncə bizə binanın tarixi barədə məlumat verir.

Hacı Zeynalabdin Tağıyevin himayəsi ilə tikilmiş bina Qızlar Gimnaziyası üçün nəzərdə tutulub və bir müddət belə fəaliyyət göstərdikdən sonra parlament binası olub. 1920-ci ildə isə binanın birinci və ikinci mərtəbələrində Darülmüəllim məktəbi yerləşib. Binanın yuxarı mərtəbəsində isə burada dərs deyən müəllimlər yaşayıblar. Bu müəllimlərdən biri də şair və dramaturq Hüseyn Cavid olub.

Muzeydə ümumilikdə 13 minə yaxın eksponat var ki, onun 860-ı sərgilənir. Bu eksponatlar içərisində ailəyə məxsus məişət və geyim əşyaları, Hüseyn Cavidin müxtəlif illərdə çap olunmuş əsərləri, şəxsi kitabları, ailəvi fotolar, dram əsərlərinin tamaşalarından proqram, afişa və fotolar, oğlu Ərtoğrol Cavidin istifadə etdiyi kitablar, bəstələdiyi musiqi əsərlərinin notları, bunlardan dahi Üzeyir Hacıbəyova həsr etdiyi fortepiano üçün “9 variasiya”, “Eşq olsun”, “Skripka ilə fortepiano üçün poema” və s. əsərləri, vallar, müxtəlif sənədlər, məktublar var. Həmçinin şairin qızı Turan Cavidin fəaliyyəti ilə bağlı materiallar da nümayiş etdirilir. Muzeydə Hüseyn Cavidin yazı masası, həyat yoldaşı Mişkinaz xanıma məxsus tikiş maşını, radioqəbuledici, yemək masası və bir çox eksponatlar əsas yer tutur. Eksponatların sayı isə ildən-ilə artmaqda davam edir. Çünki bu məkanı ziyarət edən qonaqların bəziləri muzeyə eksponatlar hədiyyə verirlər.

## Bir ovuc torpaq, “Azər” poeması, dayanmış saat...

Muzeydə Cavidin iş otağı məxsusi olaraq repressiya otağı kimi ayrılıb. Burada Oqtay Sadıqzadənin işlədiyi “1937-ci ilin repressiya qurbanları” əsəri repressiya qurbanlarının xatirəsinə rekviyem kimi qəbul olunur.

1982-ci il oktyabrın 21-də Hüseyn Cavidin İrkutsk vilayəti Tayşet rayonunun Şevçenko kəndindəki dustaq məzarından götürülmüş bir ovuc torpaq da iş otağında eksponat kimi saxlanılır. Otağın divarından asılmış saat isə Hüseyn Cavid həbs olunduğu gün Mişkinaz xanım tərəfindən dayandırılıb. Saatın əqrəbləri 11.19-u göstərir...

Şairin üzərində daşıdığı şəxsi əşyaların yerləşdiyi yazı masasında isə yarımçıq qalmış “Azər” poemasından bir hissə diqqətimizi çəkir. Öyrənirik ki, bu hissə “Azər” poemasının surətidir, əsli isə arxivdə saxlanılır. Onun istifadə etdiyi mürəkkəbqabları, qələmi, əl əsası, müştük də həmin yazı masasının üzərində nümayiş olunur.

## Möcüzəli masa, Hüseyn Cavid planeti...

Hər kəsin maraq dairəsində olan bu masanın xüsusi özəlliyi var. Belə ki, 1937-ci ildə Hüseyn Cavidi həbs etmək üçün gələnlər axtarış apardıqları zaman onun bəzi əsərlərini tapa bilməyiblər. Onlar düşünməyiblər ki, şair əsərlərini masanın gizli siyirmələrində gizlədə bilər. Həmin çəkməcələr sayəsində şairin bir çox şeirləri və “Azər” poemasından bir hissə belə xilas olur. Cavidin “Şəhla”, “Telli saz”, “Atilla”, “Çingizxan” kimi əsərləri yandırıldığı üçün məzmunları barədə məlumat olmasa da, həmin əlyazmaların adları masanın siyirmələrindən tapılıb.

Maraqlı faktlardan biri də Hüseyn Cavid adına planetin olmasıdır. Belə ki, 1997-ci il iyunun 20-də Beynəlxalq Astronomiya İttifaqı Ukrayna alimi Nikolay Çernıxın kəşf etdiyi 6262 nömrəli kiçik planetə Hüseyn Cavidin adını verib.

## 24 yaşında dünyasını dəyişən Ərtoğrolun maraqlı masası

Hüseyn Cavid xalq düşməni kimi həbs olunub və Sibirə sürgün edilərək orada vəfat edib. Oğlu Ərtoğrol isə 24 yaşında vərəmdən dünyasını dəyişib. Ərtoğrol qısa bir ömür yaşasa da, ömrünə ədəbiyyatşünas, bəstəkar, musiqişünas və rəssamlıq fəaliyyətini sığışdıra bilib. Atası kimi istedadlı olan Ərtoğrol məktəbi bitirdikdən sonra konservatoriyaya daxil olub görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovdan dərs alıb.

Ərtoğrola aid yazı masasında şəxsi əşyaları eksponat kimi ziyarətçilərdə maraq doğurur. Burada onun şahmat taxtasını, qeyd dəftərlərini, rəsm çəkmək üçün boyalarını, təqvimini, eləcə də bacısı Turanın ona hədiyyə etdiyi portfeli görmək olar.

Mişkinaz xanımın istifadə etdiyi misdən və gümüşdən olan qablar, Turan xanımdan qalan məişət əşyaları da muzeydə eksponat kimi nümayiş olunur. Hüseyn Cavidin sevimli əşyalarından biri olan nərdtaxta da muzeydə saxlanılır.

Böyük şəxsiyyətin mənalı ömrünün kiçik otaqlara sığan təəssüratları ziyarətçilərdə xoş duyğular yaradır, Cavid ailəsi barədə dolğun informasiya verir...

***Səbinə MƏMMƏDOVA, Ağaəli MƏMMƏDOV (foto), “Azərbaycan”***




# Azərbaycanda çayçılığın və sitrusçuluğun inkişafını sürətləndirməyin elmi yolları

Azərbaycanın təbii torpaq-iqlim şəraiti əsasən isti, quru və subtropik olması ilə səciyyələnir. Subtropik iqlim qurşağı ölkənin ümumi sahəsinin 65 faizini əhatə edir. 1936-cı ildə botanika və genetika sahəsində məşhur alim, akademik N.S.Vavilov Bakıda keçirilən subtropiklərin I konfransında belə demişdir ki, Azərbaycan dünyanın endemik bitki bankıdır. Lənkəran-Astara bölgəsi onun ən varlı gözəl gəlinidir...

Bu görkəmli alimin ölkəmizin iqliminə və bitki aləminə, xüsusən onun cənub bölgəsinə verdiyi yüksək qiymət özünü doğrultmuşdur. Həqiqətən, belə iqlim şəraiti respublikamızda müxtəlif növ və sortlardan olan çay, sitrus, feyxoa, kivi, zeytun, nar, əncir, püstə, badam, zəfəran, nəcib dəfnə, bambuk, tunq, xirnik, pekan, muşmula və s. subtropik meyvə və texniki bitkilərin geniş sənaye miqyasında inkişaf etdirilməsi üçün böyük potensiala malikdir.

Uzunmüddətli becərmə və geniş elmi tədqiqat işlərinin aparılması sayəsində Azərbaycanın subtropiklərində həmin subtropik meyvə və texniki bitkilərin yüksək keyfiyyətinə nail olunmuş və beləliklə, iqtisadiyyatın inkişafında təsərrüfatların böyük rolu sübuta yetirilmişdir. Təsadüfi deyil ki, SSRİ-nin tərkibində olduğu illərdə də Azərbaycan feyxoa, zeytun, zəfəran, fındıq, nar, çay və s. subtropik, pəhriz əhəmiyyətli bitkilərin istehsalı baxımından həmişə ön yerlərdə olmuşdur.

Azərbaycanda subtropik bitkiçiliyin, o cümlədən çayçılığın sənaye miqyaslı inkişaf tarixinə nəzər saldıqda, subtropik təsərrüfatların sürətli inkişaf mərhələsinin ümummilli lider Heydər Əliyevin qayğısı və səyi ilə 1970-1980-ci illərdə baş verdiyinin şahidi oluruq. Belə ki, 1969-cu ildə Heydər Əliyevin respublikaya rəhbər seçilməsi Azərbaycanda kənd təsərrüfatının digər sahələri ilə yanaşı, çayçılığın da inkişafına böyük təkan verdi. Ulu öndərin təşəbbüsü ilə bu sahə ilə əlaqədar geniş müzakirələr aparılmış və mühüm vəzifələr müəyyənləşdirilmişdir. Xüsusən, Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin respublikada çayçılığın ixtisaslaşması və təmərküzləşməsi yolu ilə intensivləşdirilməsinə yönəlmiş 29 aprel 1972-ci il tarixli birgə qərarı sahənin inkişafında böyük rol oynamışdır.

Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə Azərbaycanda çayçılığın intensivləşdirilməsi hesabına çay becərilməsi və çayçılıq sənayesi kənd təsərrüfatının gəlirli sahəsinə çevrilmişdir. Çay plantasiyalarının 1970-ci illə müqayisədə 8 min hektardan 12 min hektara, çay yarpağı istehsalının ildə 26 min tona çatdırılması və bundan da 8,5 min ton keyfiyyətli Azərbaycan çayı əldə edilməsi mümkün olmuşdur. 14 çay yarpağı emal edən və 2 çay çəkibbükən fabrikin istismara verilməsi nəticəsində ildə 45 min ton yaşıl çay yarpağının emal olunması üçün imkan yaranmışdır. Nəticədə çay yarpağı istehsalının səmərəliliyi 64 faiz və əldə edilən gəlir 16 milyon manatı ötmüşdür. Çay emal edən fabriklər 52 milyon manatlıq məhsul istehsal etmişdir. Həmin dövrdə çaybecərmə və çay emalı ilə bölgədə 65-70 min adam məşğul idi və əhalinin çaya olan tələbatının 65-70 faizi yerli çayla ödənilirdi.

Azərbaycanda 1988-1994-cü illərdə baş verən məlum hadisələr kənd təsərrüfatının digər sahələrində olduğu kimi, çayçılığa da öz mənfi təsirini göstərdi. Bazar iqtisadiyyatına keçid ərəfəsində çay becərilməsi və çay emalı ilə məşğul olanlar maddi-texniki və təşkilatı cəhətdən bir sıra çətinliklərlə üzləşdilər. Bu səbəbdən də çay plantasiyalarında aqrotexniki xidmət işləri dayandırıldı, baxımsızlq ucbatından külli miqdarda çay kolları quruyub məhv oldu. Son illərin statistik məlumatlarına görə, ölkədə vaxtilə mövcud olan (12 min hektar) çay plantasiyalarının 90 faizdən çoxu tədricən sıradan çıxmışdır. Hazırda ölkə əhalisinin çaya olan ehtiyacı əsasən idxal hesabına ödənilir.



Məlum olduğu kimi, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında yerli sərvətlərdən və təbii şəraitdən səmərəli istifadə etməklə qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişafının təmin edilməsi, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və güzəranının daha da yaxşılaşdırılması kimi həlli vacib məsələlər qarşıya qoyulmuşdur. Həmin proqramların həyata keçirilməsi sayəsində Azərbaycan yeni inkişaf mərhələsinə keçmişdir. Bu mərhələdə ölkənin ərzaq təhlükəsizliyinin həlli gündəmə gətirilərək prioritet fəaliyyət istiqamətlərindən biri elan olunmuşdur.

2008-ci il 25 avqustda təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda ölkənin aqrar sektoru üçün strateji əhəmiyyəti olan çay da əsas ərzaq məhsulları sırasına daxil edilmişdir. Məqsəd ölkədə çayçılığın bərpası və çay istehsalının artırılması ilə ölkə əhalisinin yerli çay məhsulları təminatına nail olunmasından ibarət idi. Ötən ilin sentyabrında Lənkəran şəhərində Azərbaycanın aqrar bölməsinin mühüm sahələrindən biri sayılan çayçılıq, sitrusçuluq və çəltikçiliyin dirçəldilməsi və inkişaf etdirilməsi məsələlərinə həsr edilmiş respublika müşavirəsi keçirilmiş, geniş müzakirələr aparılaraq, bu sahələrin intensivləşdirilməsi mühüm məsələ kimi qarşıya qoyulmuşdur. Həmin müşavirədə aqrar sahəyə diqqətin artırılmasının vacib məsələ olduğu önə çəkilmiş, bölgə üçün ənənəvi sayılan sahələrin, xüsusilə çayçılıq, sitrusçuluq və çəltikçiliyin müasir elmi əsaslara söykənərək inkişaf etdirilməsinin zəruri olduğu vurğulanmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının bölgədə fəaliyyət göstərən Lənkəran Regional Elmi Mərkəzi ümümrespublika toplantısında bu vəzifələrin icrası ilə əlaqədar öz iş planını yenidən nəzərdən keçirmiş və elmi-praktiki əsaslarla bir sıra tədbirlər işləyib hazırlamışdır. Onlar bunlardır:

- fermer təsərrüfatları üçün daha məhsuldar və keyfiyyətli çay sortlarını yaratmaqla və yekcins tinglərlə çay plantasiyalarının salınmasına nail olunması;
- Lənkəran-Astara bölgəsində sitrus bitkilərinin ən yaxşı adaptasiya olunmuş, yüksək təsərrüfat qiymətini almış sortların əldə edilməsi və fermer təsərrüfatlarına təqdim edilməsi;
- bölgədə çay, sitrus və digər subtropik meyvə və texniki bitkilərin inkişafı üçün becərmə texnologiyalarının təkmilləşdirilməsi;
- Astara rayonunda sitrus bitkilərinin becərilməsi üçün daha əlverişli torpaq-iqlim şəraitin olmasını nəzərə alıb AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin “Astara dayaq məntəqəsi” nin yaradılması;
- bölgədə gələcəkdə çay plantasiyalarının salınması məqsədilə Lerik rayonu ərazisində AMEA-nın “Torpaqşünaslıq və Aqrokimya İnstitutu ilə birlikdə tədqiqat işlərinin aparılması, çay və digər subtropik bitkilərin əkinəyararlı sahələrinin müəyyənləşdirilməsi;
- Lənkəran Dövlət Universiteti ilə əməkdaşlıq əsasında çay, sitrus və bəzək bağçılığı üzrə mütəxəssis kadrların hazırlanması və onların təkmilləşdirilməsi ;
- Lənkəran-Astara bölgəsinin özünəməxsus təbii torpaq-iqlim şəraitində yetişdirilən kənd təsərrüfatı məhsullarının yüksək keyfiyyətli olmasını nəzərə alaraq, “Made in Azərbaycan” brendi altında xaricə ixracatını artırmaq məqsədilə AMEA-nın Lənkəran Regional Elmi Mərkəzində müasir tələblərə cavab verən “biokimyəvi tədqiqatlar” şöbəsinin yaradılması və müasir labaratoriya avadanlıqları ilə təmin edilməsi;
- AMEA-nın Coğrafiya İnstitutu ilə birlikdə Lənkəran-Astara rayonlarının “Aqroiqlim xəritəsi”-nin hazırlanması;
- Lənkəran-Astara bölgəsində bioloji müxtəlifliyin qorunması, davamlı istifadəsi və turizmin inkişaf perspektivləri nəzərə alınaraq, AMEA-nın “Botanika İnstitutu” və “Mərkəzi Nəbatat Bağı” ilə əməkdaşlıq çərçivəsində Lənkəranda “Nəbatat bağı”nın salınması.

***Fərman QULİYEV,***
***AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin direktoru, professor***

# Laçın obalarında yazın nəfəsi duyulur




Məcburi köçkün kimi respublikamızın bölgələrinə səpələnən laçınlıların kompakt yaşadıqları məkan Ağcabədi rayonunun Taxtakörpü ərazisindədir. Laçınlılar Ağcabədi camaatının yüksək qonaqpərvərliyini, onlara çətin gündə, ağır məqamda arxa-kömək olduqlarını həmişə minnətdarlıqla vurğulayırlar.

Yurd həsrətli illər ötüb keçir. Amma laçınlıların doğma torpaqlara dönəcəklərinə, başı qarlı dağlara yenidən qovuşacaqlarına olan inam gündən-günə artır. Hərtərəfli qayğı ilə əhatə olunsalar da, onu hər an özlərinin, ailələrinin üzərində hiss etsələr də, arxayınlaşmır, ələbaxımlığa vərdiş etməmək üçün çalışır, əkib-biçir, öz süfrələrinin halal çörəyini qazanmağa çalışırlar.

İndi rayon əhalisində, ayrı-ayrı fermer təsərrüfatlarında 33,3 min baş qaramal, 171,7 min baş qoyun-keçi və 6843 arı ailəsi var. Keçən il onlar 2259 ton taxıl, 16,2 ton tərəvəz, 122,6 ton bostan məhsulları, Malıbəy və Alxaslı obalarında 174 ton pambıq yetişdirmişlər. Pambıq tarlalarının becərilməsində, yetişdirilmiş məhsulun yığılmasında 150 nəfərdən çox mövsümi işçi çalışmışdır ki, bu da həmin ailələrin əlavə gəlir əldə etməsinə əhəmiyyətli təsir göstərmişdir.

Kənd təsərrüfatında ənənəvi sahələr olan pambıqçılığın, baramaçılığın dirçəldilməsini laçınlı məcburi köçkünlər də razılıqla qarşılamışlar. Ölkədə ipəkçiliyin bərpası və inkişafı, eyni zamanda, əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərə fəal qoşulan laçınlılar Taxtakörpü ərazisində 11500 tut tingi əkmişlər. Pambıq və baramaçılıq Laçın camaatı üçün yeni təsərrüfat sahələri olmasına baxmayaraq bu gəlirli sahələrə böyük maraq göstərirlər.

Torpağa, halal zəhmətə bağlı olan laçınlılar məskunlaşdıqları əraziləri abadlaşdırmaq üçün də səy və bacarıqlarını əsirgəmirlər. Taxtakörpü qəsəbəsi bu gün şəhərə bənzəyir. Buradakı yaraşıqlı binalar, ilin bütün fəsillərində yaşıl görkəmi ilə göz oxşayan park, geniş və rahat yollar hər kəsdə məmnunluq yaradır.

Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli deyir ki, biz burada özümüzü qərib hiss etməsək də, hər bir laçınlının ürəyində yurd nisgili var: “Quş qanadlı illər sürətlə ötüb keçsə də, çox dərdlərə dərman olan zaman bizim ürəyimizdə qövr edən yaraya məlhəm ola bilmir. Buna baxmayaraq, hər bir laçınlı inanır ki, işğal altındakı torpaqlarımız tezliklə azad olunacaq, biz dədə-baba yurdlarımıza dönəcəyik. Üçrəngli bayrağımız yenə də Laçında, Şuşada, Ağdamda, Kəlbəcərdə... dalğalanacaq. Bu arzumuz nə yolla olursa-olsun gerçəkləşəcək.

Baharın gəlişi Laçın obalarında da duyulur. Qış yuxusundan oyanan torpaq isinir, göz işlədikcə uzanan düzənlər yavaş-yavaş zümrüd libasa bürünür. Canlanan təbiət könüllərə xoş duyğular gətirir. Novruz tonqallarının başında səslənən duaları bir istək birləşdirir - növbəti bayram tonqallarını Laçında, doğma həyətlərimizdə qalayaq.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# Yevlaxda yaz-tarla işləri geniş vüsət alıb



Yevlax rayonunda yaz-tarla işlərinin qızğın çağıdır. Yayda, payızda bol məhsul götürmək üçün bütün qüvvələr səfərbərliyə alınıb. Kəndli fermerlər və torpaq mülkiyyətçiləri əkin-səpin aparır, torpağa və bitkilərə lazımi aqrotexniki qulluq edirlər.

Rayon statistika idarəsindən AZƏRTAC-ın bölgə müxbirinə bildiriblər ki, bu günədək 4259,5 hektar sahədə yazlıq səpin həyata keçirilib. Əkinlərin 6 hektarı qarğıdalı, 2,5 hektarı darı, 100 hektarı günəbaxan, 6 hektarı çuğundur, 96,5 hektarı kartof, 117,5 hektarı tərəvəz, 25 hektarı bostan bitkiləri, 3906 hektarı təzə yoncadır.

Aqrar bölmədə olduqca mühüm əhəmiyyət kəsb edən yaz-tarla işlərində “Aqrolizinq” ASC-nin texnikaları fəal və mütəşəkkil iştirak edir. Cəmiyyətin Yevlax regional nümayəndəliyinin direktoru Sədaqət Ağayevin bildirdiyinə görə nümayəndəlikdə olan 21 ədəd traktor, 3 ədəd pambıqyığan maşın və 25 ədəd taxılyığan kombayn il boyu fermerlərə yüksək səviyyədə xidmət göstərir. 2018-ci ilin pambıq səpininə hazırlıq işləri ilə əlaqədar min hektara yaxın sahədə şum işləri aparılıb. Çiyid səpiləcək sahələrdə mala işləri görülür. Kultivatorlar hazır vəziyyətə gətirilib. Cari ilin birinci rübündə fermer və torpaq mülkiyyətçilərinə min tondan çox mineral gübrə və tələb olunan qədər kimyəvi maddələr güzəştli şərtlərlə verilib.

Hazırda sahələrdə yaz-tarla əkinləri davam edir. Pambıqçılıqla məşğul olan fermerlər çiyid səpininə hazırlaşır. Artıq pambıq səpini üçün 2038,1 hektar əkin sahəsi hazırlanıb. Rayonda ötən ilin payızında səpilmiş taxıl əkinlərinin becərilməsi də müvəffəqiyyətlə həyata keçirilir.

# Ağstafa rayonunda 40 mindən çox sakin tibbi müayinə olunub

Ağstafa rayonunda vətəndaşların tibbi müayinədən keçirilməsi üçün əvvəlcədən lazımi hazırlıq işləri aparılıb, həkim və tibb işçiləri onun uğurla aparılmasına cəlb olunub.



Fevral ayının 12-dən start götürən tibbi müayinə tədbirləri hazırda mütəşəkkil qaydada davam edir. Kəndlərdə, evlərdə və digər yerlərdə yataq xəstələrinə həkim briqadaları yerində tibbi xidmət göstərir, rayonun cəbhə bölgəsində yerləşən kəndlərinə səyyar həkim briqadaları ezam olunur.

Rayon mərkəzi xəstəxanasının baş həkimi Fatma Vəliyevanın AZƏRTAC-ın bölgə müxbirinə verdiyi məlumata görə, tibbi müayinə tədbirləri başlayandan indiyədək 40 min 120 nəfər müayinə olunub.

Müayinədən keçənlərin 3,3 min nəfərdən çoxuna ambulator müalicə təyin edilib, 90 nəfər stasionar müalicəyə cəlb olunub, 23 nəfər üzərində cərrahiyyə əməliyyatı aparılıb, 71 nəfər isə Bakı və Gəncə şəhərlərindəki ixtisaslaşdırılmış xəstəxanalara göndərilib.

# Dağlara bahar gəlib

Bahar gələndə Gədəbəydə başqa büsat olur. Göz işlədikcə uzanan dağlar, dərələr yaşıl örpəyə bürünür. İnsanlar təbiətin oyandığı belə bir vaxtda sübh tezdən sahələrə çıxır, yay və payızda bol məhsul götürmək üçün yorulmaq bilmədən çalışırlar.




Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün tədbirlər davam edir. Məhz bunun nəticəsidir ki, keçən il proqrama uyğun olaraq Gədəbəy şəhəri xeyli abadlaşdırılmışdır. Rayonda daxili imkanlardan istifadə etməklə sağlam biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması üçün münbit şəraitin yaradılması, yeni istehsal və emal müəssisələrinin açılması və məşğulluq səviyyəsinin artırılması hesabına əhalinin maddi rifahının yüksəldilməsi istiqamətində görülən işlər də az deyil. Bütün bu işlərin həyata keçirilməsində rayon icra hakimiyyətində yaradılmış qərargahın xüsusi rolu var. Qərargahın gördüyü tədbirlər sayəsində təkcə keçən il rayon iqtisadiyyatına 25 milyon 683,5 min manat yerli, 272 min manat xarici investisiya cəlb edilmişdir ki, nəticədə 482 yeni iş yeri açılmışdır.

Gədəbəydə iş adamlarına və investisiya yatırmaq istəyən sahibkarlara hər cür şərait yaradılmışdır. Elə bu məqsədlə keçən ilin sonlarında iş adamları ilə geniş tərkibdə görüş olmuş, cari il üçün rayona qoyulacaq investisiyaların təxmini həcmi nəzərdən keçirilmişdir. Görüşdə irəli sürülən təkliflər nəzərə alınmaqla bu istiqamətdə fəaliyyət proqramı tərtib edilmişdir.

Gədəbəydə əkinçilik və heyvandarlıq üzrə fəaliyyət göstərən məhsul istehsalçılarına lazımi dəstək verilir, müvafiq kömək göstərilir. Nəticədə ötən il rayonda 127,2 min ton kartof istehsal olunmuşdur ki, bu da əvvəlki illə müqayisədə 18 min ton çoxdur. Taxıl istehsalı 3319, tərəvəz istehsalı 4189 tona çatmışdır. Heyvandarlığa gəldikdə, ötən müddət ərzində rayon üzrə qaramalın sayı 49,8 minə, qoyun və keçilərin sayı 25,6 minə çatmışdır. Rayon heyvandarları 6,1 min ton ət, 42,8 min litr süd istehsal etmişlər.

Arıçılıq üçün əlverişli olan Gədəbəydə bu sahədə nailiyyət qazanılmışdır. Hazırda rayonda arıçılığın inkişafı üçün bir sıra işlər həyata keçirilir. Qərara alınmışdır ki, yaxın bir neçə ildə 5000 arı ailəsi olan təsərrüfatlar yaradılsın. Bu məqsədlə rayonun Başkənd ərazisində ilkin olaraq 10 hektar sahə ayrılmışdır. Hazırda 1006 nəfər rayon sakini fərdi təsərrüfatında 8009 arı ailəsi saxlayır. Hər il onlardan 48 ton bal əldə edilir.

Qazanılan bütün bu uğurlar ölkəmizdə aqrar sahənin inkişafına göstərilən dövlət dəstəyinin nəticələridir. Təkcə onu demək kifayətdir ki, keçən il Gədəbəy fermerləri onlar üçün yaradılan imkanlardan maksimum yararlanmışlar. Belə ki, rayonda 2282 hektar əkin sahəsinin becərilməsi üçün kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq və motor yağları alınmasına görə dövlət büdcəsindən 148,3 min manat subsidiya verilmiş, 249 istehsalçıya 70 faiz güzəştlə 139 ton mineral gübrə satılmışdır. Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması məqsədilə aparılan süni mayalanma nəticəsində əldə edilmiş 66 baş buzova görə isə fermerlərə 6,6 min manat subsidiya ödənilmişdir.

Kənd və qəsəbələrin infrastrukturunun yenilənməsi istiqamətində də işlər görülmüşdür. İkinci Kənd İnvestisiya Layihəsi çərçivəsində rayonun 5 kəndində uzunluğu 37 kilometr olan yollar təmir olunmuş, 5 kənddə abadlaşdırma işləri aparılmışdır. Qızıl Aypara və Qırmızı Xaç Komitəsi tərəfindən rayonun sərhədyanı Mormor, Zamanlı, İsalı, Cücənli, Dördlər, Motudərə, Qasımağalı, Arabaçı və Fərzalı kəndlərində 39 ailənin hər birinə 1100 manat maddi yardım edilmiş, 408 ailənin hər birinə 2 ton üzvi, 50 kiloqram azot gübrəsi, 9 mini-kultivator, 1800 litr yanacaq və sürtkü yağı verilmişdir.

Rayonda təhsilin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də tədbirlər həyata keçirilmişdir. Keçən il 108 şagirdlik Şınıx kənd tam orta məktəbi istifadəyə verilmiş, Soyuqbulaq kənd orta məktəbi əsaslı təmir edilmişdir. Hazırda Köhnəkənddə modul tipli məktəbin tikintisində son tamamlama işləri görülür.

Məlum olduğu kimi, Gədəbəy həm də turizm diyarıdır. Hər il minlərlə turist burada dincəlib istirahət etməyə üstünlük verir. Odur ki, turistlərin istirahətini yüksək səviyyədə təşkil etmək məqsədilə hər il mövsüm qabağı rayonda hazırlıq işləri görülür. Elə bu məqsədlə son 6 ayda yol kənarlarında və müxtəlif ərazilərdə 13500 ağac əkilmişdir. Xüsusilə, meşələrin, yaşıllıq zonalarının genişləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Bu işdə Meşə Mühafizəsi və Bərpası Müəssisəsi daha çox fərqlənir. Müəssisə keçən ilin payızından indiyədək 80 hektar sahədə yeni meşə zolaqları salmış, 250 hektarda təbii bərpa işləri aparmış, 46 hektarda yeni meyvə ağacları əkmişdir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Oxucu məktubları




**Pambıqçılıq**

## "Ağ qızıl"ın yaşıl işığı



Hörmətli redaksiya!
Mən həyatımı bütünlüklə torpağa bağlamışam. Bu bağlılıq ailəmizə firavan həyat, xoş güzəran gətirib, el-obada xoş münasibət formalaşdırıb. Uzun illərdir ki, pambıqçılıqla məşğuluq. Bir ara bu sahəyə diqqət zəiflədi. Adamlar da elə bil torpaqdan küsdülər. Əkin sahələri ildən-ilə kiçildi.

Pambıqçılığın inkişafı yolunda dövlət başçısının yandırdığı yaşıl işıq həyatımıza da təsir etdi. Yeni həvəslə, yüksək əhvali-ruhiyyə ilə torpaqla ünsiyyət bağladıq. Elə bunun nəticəsidir ki, keçən il 40 hektar sahədə pambıq əkib-becərdik. Aqrotexniki tələbləri yüksək səviyyədə yerinə yetirib tarlalarda bol məhsul yetişdirdik. Dövlət başçısı əməyimi yüksək qiymətləndirərək məni də birinci dərəcəli "Əmək ordeni" ilə təltif etdi. Bu yüksək qiymət bizi yeni uğurlara ruhlandırır. Bu il 50 hektarda pambıq əkmək, hər hektarın məhsuldarlığını daha da artırmaq əzmindəyik. Məhsul bolluğuna hələ qış aylarından etibarlı bünövrə qoymağa çalışmışıq. Pambıq əkəcəyimiz sahələrdə vaxtında keyfiyyətli dondurma şumu edilmiş, qış aratına qoyulmuşdur. Bir neçə gündən sonra çiyid səpininə başlayacağıq. MKT Ağcabədi Pambıq Zavodu ilə müqavilə bağlamışıq. Toxumluq çiyid dərmanlanıb səpinə hazır vəziyyətə gətirilmişdir. Torpaq yavaş-yavaş isinir. Biz də çiyid səpininə hazırlaşırıq.

Dediyim odur ki, dövlət səviyyəsində pambıqçılığa göstərilən dəstək, pambıqçı əməyinə verilən yüksək qiymət, "ağ qızıl"a yandırılan yaşıl işıq bizi daha yaxşı işləməyə, daha çox məhsul istehsal etməyə ruhlandırıb.

***Tofiq İSMAYILOV,***
***Ağcabədi rayonu***
***Yeni Qaradolaq***
***kənd sakini, fermer***

**Sağlamlıq**

## Ödənişsiz səyyar tibbi müayinədən 350 uşaq bəhrələndi



Novruz bayramı ərəfəsində Azərbaycan Uşaq Fondu, "Sağlam Ailə Tibb Mərkəzi" və PROAKTİV şirkətinin birgə təşkilatçılığı ilə Qobustan şəhərində "Novruz sevinci" adlı ödənişsiz səyyar tibbi müayinə keçirildi.

Aksiyada 350 nəfərdən çox uşaq iştirak etdi. Uşaqları müayinə edən həkimlərin tərkibi də geniş idi. Məqsəd əhali arasında sağlam həyat tərzini təbliğ etmək, aztəminatlı və ehtiyacı olan vətəndaşların bayram ovqatına sevinc qatmaq idi.

Səyyar tibbi müayinədən mənim 5 nəvəm də bəhrələndi. Onların hər birinə sağlamlıq kartı təqdim olundu. Biz də müayinənin təşkilatçılarına və aksiyada iştirak edən bütün həkimlərə, tibb işçilərinə təşəkkürümüzü bildiririk.

***Yusif QULİYEV,***
***Qobustan şəhər sakini, ziyalı***

**Arıçılıq**

## Gərək əməli işlə cavab verək

Gözümü açandan həyatımızdə arı pətəkləri görmüşəm. Atamın bu sahədə zəngin təcrübəsi var idi. Hər il xeyli bal satar, dolanışığımızın bir qismini bu yolla təmin edərdi. Arı südü, arı zəhəri kəlmələrini də ilk dəfə atamdan eşitmişəm. Deyərdi ki, onlardan düzgün istifadə etdikdə bədəni möhkəmləndirir, bir çox xəstəlikləri sağaldır. Balın tərkibi insan sağlamlığı üçün lazım olan vitaminlərlə çox zəngindir.



İllər ötdükcə bu sahəyə mənim də marağım artdı, başladım öyrənməyə. Atam da bu marağımı görüb başqa işi olanda, bir yana gedəndə arılara qulluq etməyi mənə tapşırardı. İndi özümün 50-dən çox arı təknəm var. Hər il yarmarkalarda 300 kiloqramdan çox bal satıram.

Onu da deyim ki, arıçılıq çox həssas sahədir. Gərək qabaqlayıcı, stimullaşdırıcı tədbirlər görəsən. Arıların əldən düşməməsi üçün onlara vaxtlı-vaxtında müəyyən dərmanlar da verilməlidir. Bir arı ailəsinə mövsüm ərzində orta hesabla 25-30 manat, bəzi hallarda daha çox pul xərcləmək lazım gəlir.

Təqdirəlayiq haldır ki, bu gəlirli sahəni inkişaf etdirmək üçün ölkəmizdə dövlət səviyyəsində tədbirlər görülür. Elə bunun nəticəsidir ki, Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun nəzdində Arıçılıq Mərkəzi yaradılmış, Azərbaycan Arıçılar Assoisiasiyası təsis edilmişdir. Damazlıq, arıçılıq təcrübəsinin genişləndirilməsi, genefond arıxanalarının yaradılması, arıçılıq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, sərgi-satış yarmarkalarının təşkili də həmçinin.

Dövlət başçısı arıçılığı inkişaf etdirmək, kənd əhalisinin gəlirlərini artırmaq və məşğulluğunu təmin etmək üçün mart ayında sərəncam da imzaladı. Sərəncamda göstərilir ki, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə cari il də daxil olmaqla 5 il müddətinə ildə 10 min manat məbləğində subsidiya ödənilsin. Biz arıçılar da gərək bu qayğıya əməli işimizlə - daha yaxşı çalışmaqla sanballı töhfələr verək.

***Araz MƏMMƏDOV,***
***Goranboy rayonu***

**Abadlıq**

## Köhnə binalar yeni görkəm alır

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası sayəsində Quba rayonunda da bir sıra sosialyönümlü layihələr həyata keçirilmişdir.

Ötən il də rayonun həyatı bir çox əlamətdar hadisələrlə zəngin oldu. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, dekabrın 7-də dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Quba "ASAN həyat" kompleksi, Quba Bayraq Muzeyi, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Quba filialının açılışı oldu. Həmin gün əsaslı şəkildə yenidən qurulan Rostov-Xanəga-Gürdəh, Rostov-Nöydün-Şuduq, Rostov-Məskəxacə, Rostov-Bağçalı-Yekdar avtomobil yollarının açılışında da Prezident iştirak etdi. Bu yollar 6 min əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirir.

Dekabrın 7-də ölkə rəhbəri Qubada abadlıq-quruculuq işlərinin davam etdirilməsi, şəhərin mənzil fonduna daxil olan çoxmənzilli 36 binanın əsaslı təmiri üçün sərəncamla Prezidentin Ehtiyat Fondundan rayon icra hakimiyyətinə 3 milyon manat vəsait də ayırdı.

İndi bu hesaba şəhərin müxtəlif istiqamətlərində - Heydər Əliyev prospektində, Fətəli xan, Mövlud Qonaq, Vaqif küçələrində və digər yerlərdə çoxmənzilli binalar təmir olunur. Yazın gəlişi ilə əlaqədar işlərin sürəti bir qədər də artıb. Dam örtükləri, qapı-pəncərələri dəyişdirilən binalar indi çox yaraşıqlı görünür. Təmir işləri başa çatdıqdan sonra şəhərimizin gözəlliyi bir qədər də artacaq.

***Qəhrəman QASIMOV,***
***Quba şəhəri***

## Bir arzumuz da çin olur

Hamı istəyir ki, gedəcəyi yerə tez çatsın, yol yorğunu olmasın. Xüsusən də ağır xəstə olanda, ortaya təcili iş çıxanda bu arzu, bu istək özünü daha çox büruzə verir. O da məlumdur ki, bütün yolları eyni vaxtda nə təmir etmək, nə də təzəsini çəkmək mümkündür. Amma ölkəmizdə dövlət səviyyəsində yüksəksəviyyəli yollar çəkiləndə, köhnələri təmir ediləndə əmin idik ki, bizim yollara da növbə çatacaq.

Artıq bu arzumuz da çin olur. Başqa sözlə, bizim Şəki rayonunda uzunluğu 50,9 kilometr olan Çayqaraqoyunlu-Turan-Cəyirli-Qozlubulaq-Sarıca-Qayabaşı-Bolludərə-Qaratorpaq avtomobil yolunun yenidən qurulmasına başlanılıb. Yenidənqurma işləri bu ərazidə yaşayan sakinlərin xüsusən payız-qış aylarında gediş-gəlişlə bağlı çətinliklərini aradan qaldıracaq, yük və sərnişin daşınmasını asanlaşdıracaq. Həmçinin respublikanın iki əsas avtomobil yoluna çıxış əldə olunmaqla məsafə də xeyli qısalacaq. Bu yolun bir əhəmiyyəti həm də ondadır ki, 11 min əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirir. Biz də bu yolun çəkilişində əməyi olan, iştirak edən insanlara əliniz, qolunuz var olsun deyirik.

***İlya HƏSƏNOV,***
***Şəki rayonu Bolludərə kənd sakini***

# Təbiət təzə don geyir





Təbiət təzə don geyir, çöllərə, düzənlərə yaşıl xalı sərib gül-çiçəyə qərq edir. Uzaq-uzaq ellərdən köçəri quşlar yurdumuza pənah gətirir. Yazın gəlişi ilə insanların da ruhu təzələnir. Onlar yeni həvəslə işləməyə, qurub-yaratmağa çalışırlar. Kənddə yaşayanlar sahələrə çıxır, bol məhsulun təməlini qoyurlar.

Xalqımız bu yazı - Novruz bayramını yaxşı nailiyyətlərlə qarşıladı. Nailiyyətlər o qədər çoxdur ki, onları saymaqla qurtaran deyil. İnanırıq ki, həmişə belə olacaq.

***Foto Ağaəli MƏMMƏDOVUNDUR***

**Səyyar qəbul**

## Bu gün təklif, sabah...

Astara rayonundakı Şuvi kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyinə 7 kənd daxildir. Əhalinin əsas məşğuliyyəti çayçılıq, sitrusçuluq, heyvandarlıq, arıçılıqdır. Şuvi, Sərək, Səlivə və Deqədi kəndlərinin ərazilərində 190 hektar yeni əkin sahəsi salınmışdır. Bunun 90 hektarı çay plantasiyalarıdır. Əkin sahələrinə qulluq etmək üçün 6 briqada yaradılaraq 320 nəfərdən çox insan daimi işlə təmin olunmuşdur.

Son illər nümayəndəlikdə abadlıq-quruculuq işləri də xeyli artmışdır. Ərçivan-Şuvi-Qapıçıməhəllə avtomobil yolu asfaltlaşdırılmış, Şuvi kəndində 480 yerlik orta məktəb binası tikilərək istifadəyə verilmiş, bir neçə kənd qazlaşdırılmışdır.

Özü də problemlərin bir qismi rayon icra hakimiyyəti başçısının nümayəndəlikdə keçirdiyi səyyar qəbul və görüşlərdən sonra həll edilmişdir. Məsələn, belə görüşlərdə qaldırılan məsələlərdən biri Siyatük kənd məktəbi ilə bağlı idi. Çox keçmədən rayon rəhbərliyinin köməyi ilə məktəb binasının tikintisinə başlandı və artıq inşaat işləri başa çatmaq üzrədir.

Bu yaxınlarda Şuvi kəndində rayon icra hakimiyyəti başçısının keçirdiyi səyyar qəbul və görüşdə adəti üzrə rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri də iştirak edirdilər. Görüşdə çıxış edən sakinlər çay sularının bir hissəsini yuduğu Deqədi-Sərək yolunun təmiri, Yuxarı Şuvi yaşayış massivində əlavə elektrik transformatorunun qoyulması, Deqədi kənd ümumi orta məktəb binasının yaxınlığından keçən yüksək gərginlikli elektrik xəttinin yerinin dəyişdirilməsi, Sərək kənd tam orta məktəbi və Şuvi kənd uşaq bağçası üçün yeni binanın tikintisi və digər məsələlər barədə istək və arzularını bildirdilər.

Rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev həlli qısa müddətdə mümkün olan məsələlər barədə müvafiq qurumların rəhbərlərinə tapşırıqlar verib bildirdi ki, Səlivə və Deqədi kəndlərinin təbii qazla təmin edilməsinə start verilmiş, mütəxəssislər ərazidə layihələşdirmə işlərinə başlamışlar.

Dediyim odur ki, səyyar qəbulların və görüşlərin səmərəsi çox olur, bir çox adi və digər məsələlər öz həllini daha tez tapır. İnanırıq ki, bu dəfə də belə olacaq.

***Səfail MƏMMƏDOV,***
***Astara rayon sakini***

**Quruculuq**

## Su problemi həll edildi



Son illər aparılan böyük abadlıq və quruculuq işləri Şəmkirin simasını çox dəyişib. İndi rayona gələn qonaqlar yaradılan gözəlliklərdən zövq alır, park və xiyabanları gəzməkdən doymurlar. Həyata keçirilən sosial layihələrdən biri Şəmkir şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulmasıdır.

Artıq su təchizatı işlərinin 80 faizi, kanalizasiya sistemində işlərin 64 faizi başa çatdırılmış, 7 mindən artıq abonentin mənzilində smartkart tipli sayğac quraşdırılmışdır. Suyun davamlı olması üçün 4 anbar da inşa edilmişdir. Yeni çəkilən su xəttindən bizim ailə də istifadə edir. Nə vaxt kranı açırıqsa, təmiz, saf su axır. Halbuki əvvəllər suyu küçədən vedrə ilə daşıyırdıq.

Bu işlərin görülməsi üçün vəsait ayıran dövlət başçısına minnətdarlıq edir, su və kanalizasiya xətlərinin çəkilişində zəhməti olan hər kəsə əliniz, qolunuz var olsun deyirik.

***Nizami QURBANOV,***
***Şəmkir şəhər sakini***

**Sadə peşə adamları**

## Onu qonşu rayonlarda da tanıyırlar



Xırmandalı Biləsuvar rayonunun böyük yaşayış məntəqələrindəndir. Əhalisinin sayı on min nəfərə çatır. Sakinlərin əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır.

Burada mal-qara ilə yanaşı, at saxlayan ailələr də var. Kənd sakini Elməddin Zeynalov da atlara yəhər, qoşqu, yüyən hazırlayır. Bu məqsədlə həyətində münasib yer düzəldib sifarişlər qəbul edir.

Onunla iş yerində görüşdük. Dedi ki, bu işlə məşğul olmağa başlayanda 20 yaşım vardı. İlk işim xoşuma gəlməsə də, hiss etdim ki, nəsə alınır. Odur ki, bu sənəti özümə peşə seçdim. Aylar, illər ötdükcə müştərilərimin sayı artmağa başladı. Artıq neçə illərdir ki, ailəmizin dolanışığını əsasən bu yolla təmin edirəm.

Elməddinin iş yeri xoş təsir bağışlayır. Sifarişləri səliqə ilə, zövqlə yerinə yetirir. Hamı həmişə ondan razılıq edir. Onu da deyim ki, hətta qonşu rayonlardan da sifarişlər alır. Usta Elməddin təkcə yaşadığı kənddə deyil, rayonda da bu sənəti yaşadan yeganə adamdır.

Özü bu barədə belə dedi:

- Övladlarım başqa peşə seçsələr də, istəyirəm ki, bu sənəti öyrənib gələcək nəsillərə ötürsünlər. Axı atdan minik vasitəsi kimi, həm də müxtəlif təsərrüfat işlərinin görülməsində istifadə olunur.

***Mirzə CƏFƏROV,***
***Biləsuvar rayon sakini***

15 aprel Beynəlxalq Mədəniyyət Günüdür

# Mədəniyyət xalqları bir-birinə yaxınlaşdıran ünsiyyət vasitəsidir

Mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu Azərbaycanın humanitar sahədəki təcrübəsi son dövrlər dünya xalqlarının marağına səbəb olub. Mədəni dəyərlərin öyrənilməsi və onlardan istifadə edilməsinə daha çox diqqət ayrılmasının səbəbləri az deyil. Mədəniyyət xalqları daha çox yaxınlaşdırır.

Bu baxımdan Beynəlxalq Mədəniyyət Gününün hər il qeyd edilməsi heç də təsadüfi deyil. Xatırladaq ki, 1935-ci il aprelin 15-də Vaşinqtonda "Bədii, elmi müəssisə və tarixi abidələrin mühafizəsi və qorunması haqqında" imzalanmış müqavilə ilə əlaqədar Beynəlxalq Mədəniyyət Günü təsis olunub.

Son illər ölkəmiz həm Qərb, həm də Şərqin mədəniyyət məsələlərinin aparıcı rol oynadığı beynəlxalq qurumlarda fəal iştirak edir. Azərbaycan bu sahədə demək olar ki, hər il beynəlxalq mədəni konvensiyaya, sənədə, təşəbbüsə qoşulur, onun icrasına dəstək verir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın mədəniyyət sahəsindəki xidmətləri əvəzsizdir.

Azərbaycan dövləti daxil olduğu beynəlxalq qurumlarda yalnız öz mədəniyyətini təbliğ etmir. Yaxud ancaq dünya mədəniyyətinin Azərbaycanda təbliği ilə məşğul olmur. Eyni zamanda dünya mədəniyyətinə öz töhfələrini verir.

Son zamanlar həm maddi, həm də qeyri-maddi mədəni irsin dünyaya təqdim olunmasında böyük hadisələr baş verdiyinin şahidiyik. Qobustandakı qayaüstü rəsmlərin, İçərişəhər Dövlət Qoruğunun dünyanın böyük mədəni irsinin nümunələri siyahısına daxil edilməsi heç də təsadüfi deyil. Eləcə də xalqımıza məxsus muğam, aşıq, xalça sənətlərinin dünya mədəni irs siyahısına salınması, milli bayramımız Novruzun xalqımızın mənəvi-mədəni sərvəti kimi dünyaya təqdimi, onun BMT-nin qeyri-maddi irs siyahısına əlavə edilib beynəlxalq status qazanması mənəvi sərvətlərimizin dünyaya tanıdılmasının bariz nümunəsidir.

Bütün bunlar mədəni sərvətlərimizin qorunub saxlanması, inkişafı, daha uğurlu şəkildə, müasir texnologiyalara uyğun formada dünyaya təqdimatı sahəsində yürüdülən dövlət siyasətinin prioritetlərindəndir.

Azərbaycan son illər bir çox beynəlxalq mədəniyyət tədbirlərinə evsahibliyi edib. Bu gün nəinki Avropa məkanında, dünyanın mədəniyyət mərkəzlərindən biri sayılan Bakıda, eləcə də respublikamızın regionlarında beynəlxalq mədəniyyət və idman tədbirləri təşkil olunur. Azərbaycan gənclərinin 2011-ci ildə "Eurovision" beynəlxalq mahnı müsabiqəsində qalib gəlmələri yalnız xalqımızın istedadının üzə çıxması deyildi, ölkəmizin belə mötəbər tədbirlərə artıq təşkilatçılıq etmək kimi məsuliyyətli vəzifəni öz öhdəsinə götürmək bacarığı və imkanlarının təsdiqi, eyni zamanda, musiqi mədəniyyətimizin gələcəyinə təminat verməsi demək idi. Son 20 ildə ölkəmizdə, xüsusən də paytaxt Bakıda keçirilən beynəlxalq tədbirlərin sırasına nəzər salsaq, yüzlərlə toplantının adını çəkə bilərik.

Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanan Azərbaycan dövlətinin mədəniyyət siyasəti çox uğurlu bir istiqamətdir. Bura ilk növbədə, xalqımızın tarix boyu yaratdığı klassik mədəniyyətin mənimsənilməsi daxildir. 2000-ci ildə "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsi böyük hadisə oldu.

Prezident İlham Əliyevin15 fevral 2013-cü ildə imzaladığı "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli Qanununun tətbiqi barədə fərmanı isə bu sahənin inkişafı istiqamətində dövlət tərəfindən atılan ən mühüm addımlardan biridir.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2014-cü ildən Qəbələdə keçirilən Üzeyir bəy Hacıbəyli Beynəlxalq Musiqi festivalları nəinki Azərbaycanın, iştirakçı ölkələrin də mədəniyyət tarixinə yazılır. Festivalın açılışında Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın beynəlxalq musiqi bayramı iştirakçılarına təbrik məktubunda deyilirdi: "Beynəlxalq mədəni əlaqələr, qarşılıqlı mədəni inteqrasiya bu gün də Azərbaycanın dövlətlərarası siyasətinin əsas prioritetlərindən biridir. Xalqlararası mədəni-mənəvi inteqrasiyanın səmərəliliyini artıran layihələr bizim üçün çox dəyərlidir. Biz bu festivalı müxtəlif millətlərin musiqi mədəniyyətinin qarşılıqlı zənginləşməsinə, xalqlararası dostluq münasibətlərinin daha da möhkəmlənməsinə verilən böyük bir töhfə kimi dəyərləndiririk".

Azərbaycan təbii ki, bu gün dünyadakı mədəni inkişaf prosesindən kənarda deyil. Milli mədəniyyətini bəşəriyyətə layiqincə təqdim edən xalqımız eyni zamanda, tolerantlığı və multikulturalizmi dövlət səviyyəsində qoruyub saxlayır ki, bu da özünəməxsus xüsusiyyətlərindən biridir.

Azərbaycan mədəniyyətinin təbiəti elədir ki, o, həmişə bəşəriyyətə açıq olub. Çünki o, bir tərəfdən Şərq mədəniyyəti ilə çox bağlıdırsa, digər tərəfdən Qərb mədəni dəyərlərini özündə ehtiva edir. Azərbaycanın dünya mədəniyyətinə inteqrasiyasında kifayət qədər güclü tarixi təcrübəsi var. Lakin respublikamızın dövlət müstəqilliyinin bərpasından sonrakı illərdə bu məsələlər həm elmi-nəzəri baxımdan təhlil olunur, həm də dövlət siyasətində xüsusi yer tutur. Milli mədəniyyətimizin dünya xalqlarının mədəniyyəti ilə sıx əlaqəsi, sadəcə, deklorativ bir müddəa şəklində bəyan edilmir. Bu, beynəlxalq təşkilatlarla - UNESCO, Avropa İttifaqı, Avropa Şurası ilə əməkdaşlıq şəraitində həyata keçirilən, evsahibliyi etdiyimiz beynəlxalq layihələrlə, tədbirlərlə də sübut olunur.

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

# "Aktyor əbədiyyətə qovuşanda" tamaşasının premyerası keçirildi

Azərbaycan Teatr Xadimləri İttifaqının Mustafa Mərdanov səhnəsində Şuşa Dövlət Musiqili Dram Teatrının "Aktyor əbədiyyətə qovuşanda" tamaşasının premyerası oldu.

Psixoloji dram janrında olan birhissəli tamaşa xorvat yazıçısı və dramaturqu Miro Qavranın əsəri əsasında hazırlanıb. Pyesi Azərbaycan dilinə Svetlana Həkimova tərcümə edib.

İki personajın rol aldığı səhnə əsərinin quruluşçu rejissoru respublikanın əməkdar artisti Nazir Rüstəmovdur. Səhnə əsərində Nazir Rüstəmov və Bahar Həmzəyeva-Abdullayeva çıxış edirdilər.

Premyeranın tamaşaçıları arasında tanınmış incəsənət xadimləri, tənqidçilər və media nümayənləri var idi. Tamaşaçıları salamlayan Azərbaycan Teatr Xadimləri İttifaqının yaradıcılıq üzrə sədr müavini, Azərbaycan Akademik Milli Dram Teatrının aktyoru, xalq artisti Hacı İsmayılov əvvəlcə Mustafa Mərdanov səhnəsi barədə məlumat verdi. O, qeyd etdi ki, Azərbaycan Teatr Xadimləri İttifaqının yerləşdiyi binanın tikiliməsində teatr səhnəmizin görkəmli nümayəndəsi Mustafa Mərdanovun və tanınmış rejissor Zəfər Nemətovun çox böyük rolu olub. 2014-cü il sentyabrın 29-da açılan Mustafa Mərdanov səhnəsində ilk təqdim olunan da onun "Mənim xatirələrim, mənim müasirlərim" əsərinin kompazisiyası əsasında hazırlanmıəş tamaşa olub. Daha sonra Elçin Hüseynbəylinin "Qaçaq qocalar", Ejen İoneskonun "Stullar" və Rövşən Ağayevin "Sonluğun sonu" əsərləri əsasında səhnələşdirilmiş tamaşalar təqdim edilib. H.İsmayılov vurğuladı ki, "Aktyor əbədiyyətə qovuşanda" bu səhnədə nümayiş olunan sayca beşinci tamaşadır: "Bu gün Şuşa Dram Teatrı bizim qonağımızdır. Əsərin müəllifi - Miro Qavran istedadlı yazıçıdır. Şuşa Dram Teatrı səhnələşdirdiyi "Aktyor əbədiyyətə qovuşanda" isə onun ən maraqlı əsərlərindən biridir".

H.İsmayılovun çıxışından sonra səhnə qaranlığa qərq oldu, lakin onun lal sükutu uzun sürmədi. Çəkic səsi ilə birlikdə səhnə yavaş-yavaş işıqlanmağa başladı. Tamaşanın iki qəhrəmanı - Tom (Nazir Rüstəmov) və Yeva (Bahar Həmzəyeva-Abdullayeva) səhnədə göründülər. Məlum oldu ki, Tom həyatı boyu bəlkə də bu anlar üçün yaşayıb. O, öz yazdığı əsəri tanınmış aktrisanın ifasında səhnəyə qoymaq istəyir. Hər iki qəhrəmanın dilində səslənən monoloq isə yalnız Yevanın deyil, bütün teatr aləminin, aktyorluq sənətini seçənlərin taleyi kimi səslənir: "Aktyor əbədiyyətə qovuşanda yalnız bir insan ömrü deyil, onun ətrafındakı bütün kölgələr yox olur. Heç vaxt oynamadığı, oynaya bilmədiyi qəhrəmanlar da ölür. Hətta onun tamaşaçıları özləri də bilmədən yox olurlar. Aktyor öləndə heç vaxt yanmayan projektorlar da sönür. Heç vaxt qoyulmayan tamaşalar da ölür. Aktyor əbədiyyətə qovuşanda onun oynadığı bütün rollar da ölür..."

Bir saat davam edən tamaşa ərzində səhnədə baş verən hadisələr, çox maraqlı, dərin psixoloji anlar tamaşaçını həyəcan içərisində saxlayır. Tamaşanın uğurlu musiqi tərtibatı - Maksim Mrvicanın ifasında Tonçi Hulјiçin və Klod Debüssinin əsərləri də gərgin, psixoloji məqamların, qəhrəmanların daxili təlatümlərinin daha təsirli təqdim olunmasına kömək edir.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Daha çox nəyə pul xərcləyirik

Dövlət Statistika Komitəsinin məlumatına görə, rüb ərzində pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,6 faiz üstələyərək 8,5 milyard manata bərabər olmuşdur. Ticarət dövriyyəsinin 4,3 milyard manatını ərzaq, içkilər və tütün məmulatları, 4,2 milyard manatını qeyri-ərzaq məhsulları təşkil etmişdir.

Hesabat dövründə alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 45,7 faizi ərzağın, 5 faizi içkilər və tütün məmulatlarının, 17,7 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6 faizi elektrik malları və mebellərin, 5,7 faizi avtomobil yanacağının, 1,2 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

Bu dövrdə istehlak məhsullarının 13 faizi ticarət müəssisələri, 52,5 faizi fərdi sahibkarlar tərəfindən, 34,5 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2017-ci ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 19,3, fərdi sahibkarlar üzrə 0,9 faiz artmış, bazar və yarmarkalarda dəyişməz qalmışdır.

3 ay ərzində əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 289,2 manat və ya 2017-ci ilin yanvar-mart aylarının göstəricisindən nominal ifadədə 16,8 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 146,6 manatlıq ərzaq, içkilər və tütün məmulatları, 142,6 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

# İqtisadi sektorda orta aylıq əməkhaqqı 510 manatdan çoxdur

Martın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 516,5 min nəfər olmuşdur. Onlardan 887,9 min nəfəri iqtisadiyyatın dövlət, 628,6 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsinin bu barədə açıqlamasında bildirilir ki, muzdla işləyənlərin 21,9 faizi təhsil, 19,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,2 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6 faizi tikinti, 4,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 11 faizi digər sahələrdə məşğul olmuşlar.

Cari ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,2 faiz artaraq 510,8 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, tikinti, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində isə orta aylıq nominal əməkhaqqı daha yüksəkdir.

*"Azərbaycan"*

# Narkotik vasitələrin ölkəyə gətirilməsi cəhdinin qarşısı alınıb

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Biləsuvar Gömrük İdarəsinin "Qoşa Təpə" gömrük postunda İran İslam Respublikasından Azərbaycan Respublikasına piyada gələn Azərbaycan vətəndaşı saxlanılıb və üzərində şəxsi yoxlama aparılıb.

Yoxlama zamanı zərurət yarandığından vətəndaşın daxili orqanları həkim müayinəsindən keçirilib. Nəticədə, həmin şəxsin düz bağırsağında narkotik vasitələr - 3 bükümdə ümumi xalis çəkisi 42,479 qram olan heroin, 2 bükümdə ümumi xalis çəkisi 15,566 qram olan qurudulmuş marixuana, 1 bükümdə isə 20 ədəd metadon adlı həb aşkarlanıb.

Xatırladaq ki, metadon "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələrin II Siyahısı"na daxildir və aşkar olunan 20 ədəd həbdə metadonun təsiredici maddəsinin ümumi miqdarı 0,8 qram təşkil edir.

Faktla bağlı araşdırma aparılır.

# "Formula-1" Azərbaycan Qran-prisinə bilet satışı davam edir

AZƏRTAC xəbər verir ki, dördgünlük biletlərin qiyməti tribunadan asılı olaraq, 250-690 manat arasında dəyişir. Bu biletlər azyaşlılar üçün endirimli qiymətlərə təklif olunur. Bundan başqa, aprelin 27-29-da təşkil olunacaq yarış üçün ayaqüstü zonalara birgünlük biletlər də satışdadır. Həmin biletlərin qiyməti günlərdən asılı olaraq 60-150 manat təşkil edir.

Həmçinin alıcılara həm dünya ulduzlarının iştirakı ilə baş tutacaq axşam konsertlərində, həm də məşhur DJ-lərin çıxış edəcəyi gecə əyləncə proqramlarında "Qızıl dairə"də olmaq imkanı verilir. Bunun üçün tamaşaçılar aldıqları biletə ya gündəlik əlavə 80, ya da bir dəfəyə üç gün üçün cəmi 200 manat ödəniş etməlidirlər.

Bilet sahibləri trekdə yarışla yanaşı, Dənizkənarı Milli Park boyunca uzanan əyləncə zonasında olan bütün tədbirlərdə iştirak edə, həftəsonunun hər axşamı "Baku Crystal Hall"da keçiriləcək konsert və əyləncə proqramlarına "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin Azneft dairəsindən təşkil edəcəyi xüsusi avtobuslarla rahat gedib-gələ biləcəklər.

# Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 91 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 91 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Cəvahirli, Sarıcalı, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## ABŞ, Böyük Britaniya və Fransa Suriyaya zərbə endirdilər



ABŞ, Böyük Britaniya və Fransanın silahlı qüvvələri Suriyadakı hərbi obyektlərə zərbələr endirmişlər. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Məlumata görə, əməliyyat hökumət qüvvələri tərəfindən Duma rayonunda dinc əhaliyə qarşı kimyəvi silahdan istifadə olunmasına cavabdır.

ABŞ Silahlı qüvvələri qərargahlar rəisləri Birləşmiş Komitəsinin başçısı Cozef Danford bildirmişdir ki, zərbələrə kimyəvi silahla əlaqəli üç obyekt məruz qalmışdır. Birinci hədəf Dəməşq yaxınlığındakı Elmi-Tədqiqat İnstitutu olmuşdur. İkinci zərbə Homs şəhəri yaxınlığındakı kimyəvi silah anbarına, üçüncüsü isə komanda mərkəzinə endirilmişdir. Ümumilikdə obyektlərə 100-dən çox raket atılmışdır. Tələfat yoxdur. Üç nəfərin yaralandığı bildirilir. Suriyanın SANA agentliyinin xəbərinə görə, ölkənin hava hücumundan müdafiə sistemləri raketlərdən 13-nü zərərsizləşdirmişlər.

Rusiya Prezidenti Vladimir Putin bildirmişdir ki, ABŞ və müttəfiqləri BMT Nizamnaməsinə, beynəlxalq hüquqa zidd şəkildə, BMT Təhlükəsizlik Şurasının sanksiyası olmadan Suriyada hərbi və mülki obyektlərə zərbələr endirmişlər. Rusiya lideri bunu terrorçuluğa qarşı mübarizənin ön cəbhəsində olan suveren dövlətə qarşı təcavüz aktı adlandırmışdır.

## Misir Prezidenti fövqəladə vəziyyət rejimini uzatdı



Misir Prezidenti Əbdülfəttah Sisi ölkədə fövqəladə vəziyyət rejimini daha üç ay müddətinə uzatmışdır. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Yanvarda Misir hökuməti Sinay yarımadasının şimalında yerləşən bir neçə rayonda həm də komendant saatı tətbiq etmişdir.

Xatırladaq ki, Sisi ötən ilin aprelində Tanta və İsgəndəriyyə şəhərlərindəki kilsələrdə baş vermiş terror aktlarından sonra ölkədə üç aylıq fövqəladə vəziyyət tətbiq etmişdir. Bundan sonra rejimin müddəti uzadılmışdır. Həmin hadisələrdə 46 nəfər həlak olmuşdur. Dekabrın 24-də bir qrup ekstremist Sinay yarımadasının şimalında məscidə hücum etmişdir. Nəticədə 230-dan çox adam həlak olmuşdur.

Misir ordusu bir neçə ay davam edən "Sinay-2018" antiterror əməliyyatı çərçivəsində son bir neçə gün ərzində 27 ekstremisti məhv etmişdir. Bundan əlavə, müxtəlif cinayətlərdə və terrorçuluq fəaliyyətində şübhəli bilinən 115 nəfər saxlanmışdır.

## Əfqanıstanda polis məntəqəsi hücuma məruz qaldı



Əfqanıstanın qərbində Gerat əyalətinin Şindənt rayonunda təhlükəsizlik qüvvələri ilə "Taliban" hərəkatının döyüşçüləri arasında toqquşmalar baş vermişdir. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Taliblər Larnazak kəndindəki polis məntəqəsinə hücum etmişlər. Bir neçə saat davam edən toqquşmalar nəticəsində təhlükəsizlik qüvvələrinin 9 əməkdaşı həlak olmuş, 2-si yaralanmışdır.

Bundan əlavə, "Taliban"ın 15 silahdaşı öldürülmüş, 22-si yaralanmışdır. Bu barədə Gerat qubernatoru administrasiyasının mətbuat katibi Ceylani Fərhada istinadən "Anadolu" agentliyi xəbər verir.

## Ekvadorda həlak olmuş jurnalistlərə görə dördgünlük matəm elan olundu



Ekvador Prezidenti Lenin Moreno həlak olmuş jurnalistlərə və hərbi qulluqçulara görə dördgünlük matəm elan etmişdir. Söhbət Kolumbiya ilə sərhəddə cinayətkarlar tərəfindən oğurlanmış və qətlə yetirilmiş "Comercio" qəzetinin üç əməkdaşı (iki jurnalist və onların sürücüsü) və 4 hərbi qulluqçudan gedir. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Baş vermiş hadisəyə görə Moreno Peruya səfərini yarımçıq qoyaraq vətənə qayıtmışdır. Bu arada Kolumbiya Prezidenti Xuan Manuel Santos jurnalistlərin qətlinin təhqiqatında bütün mümkün yardım etməyi vəd vermişdir.

Hadisə Kolumbiya ilə sərhəddə yerləşən Mataxe rayonunda baş vermişdir. "Comercio"nun əməkdaşları ötən ayın axırlarında oğurlanmışdır.

## Liviya sahili yaxınlığında 500-ə yaxın miqrant xilas edildi



Aralıq dənizində Liviya sahili yaxınlığında 500-ə yaxın miqrant xilas edilmişdir. Bu barədə İtaliyanın Sahil mühafizəsi xidmətinə istinadən TASS agentliyi xəbər verir.

Məlumata görə, üç xilasetmə əməliyyatında Avropa İttifaqının (Aİ) Aralıq dənizindəki hərbi dəniz miqrasiya missiyasının "EunavforMed" gəmisi və Almaniyanın "Sea Watch 3" qeyri-hökumət təşkilatının gəmisi iştirak etmişdir. Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) məlumatına görə, ötən il dənizlə Avropaya 171 min adam gəlmişdir. Ən çox qaçqını (119 min nəfər) İtaliya qəbul etmişdir.

Qeyd olunur ki, ötən il miqrantların Aİ-yə axını təxminən iki dəfə azalmışdır. Belə ki, 2016-cı ildə Aralıq dənizi ilə Avropaya gəlmiş qaçqınların sayı 363 min nəfər təşkil etmişdi.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan " qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan " nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8809
Sifariş 1033